


## Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edib

*Sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirilib. "Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə fəxri qonaq qismində iştirak edib.*

Səh.3


# UNIKAL

№34 (2168) 15 sentyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Anar Kərimovun nazir olduğu dövrlə bağlı yeni qalmaqal

### Sabiq rəisi həbs olunan Dövlət Xidmətində ondan sonra da ciddi nöqsanlara yol verildiyi üzə çıxdı

*Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində yeni nöqsanlar aşkarlanıb. Belə ki, bu quruma ayrılmış dövlət vəsaitinin və digər dövlət əmlakının istifadəsi və idarə olunmasının qüvvədə olan hüquqi aktların tələblərinə uyğunluğunun qiymətləndirilməsi məqsədilə aparılmış yoxlama nəticəsində ciddi qanunsuzluq faktları ortaya çıxb. 2020-2022-ci illər üzrə dövlət büdcəsindən Xidmətə yönəldilən 22214,1 min manat vəsaiti əhatə edən audit Hesablama Palatası tərəfindən həyata keçirilib. Məlum olub ki, Xidmətin nəzarət sahəsinə aid edilən 4331 ədəd daşınmaz tarix və mədəniyyət abidələrinin 87,9%-nin (3809 abidə) pasportlaşması...*

Səh.8

# Ermənistana sərt xəbərdarlıq: "Təhdid yaradan hədəflər vurulacaq"



Səh.9

## "Ermənistan əsgəri dərk edir ki, başqa torpaq uğrunda vuruşur"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Ağdam-Xankəndi yolunun açılmasından, Ermənistanın tərəfinin törətdiyi təxribatlardan nəticə çıxarmamasından və növbəti təxribatlara hazırlaşmasından, Ermənistanla Rusiya arasında gərginliyin artmasından və s. məsələlərdən danışıb.*

Səh.4

## Bu seçki dairələri ləğv edilir - İlqar Məmmədovdan iddia



*"Abşeron yarımadasından kənarda yerləşən bir neçə seçki dairəsi ləğv edilir, onların məntəqələri qonşu dairələrə verilir. Əvəzində, əsasən Abşeron yarımadasında yeni dairələr yaradılır. Tezliklə baş verəcək bu yerdəyişmə ölkə daxilindəki əhali köçü ilə bağlıdır". "Unikal" xəbər verir ki, bunu Respublikaçı...*

Səh.4

## Rusiya və Şimali Koreya liderləri nələri müzakirə etdilər? - Məmmədyarov danışdı



*Xəbər verdiyimiz kimi, Şimali Koreya lideri Kim Çen In Rusiyaya səfər edib. Sentyabrın 13-də Amur vilayətində "Vostoçnıy" kosmodromunda Koreya lideri ilə Rusiya Prezidenti Vladimir Putin arasında görüş keçirilib. Tərəflər arasında danışıqlar 5 saatdan çox davam edib. Bəs görəsən, bu səfərdə daha çox hansı məsələlər müzakirə olunub?*

Səh.9

# "Toyum bu il olacaq" - Günel



***Müğənni Günel Zeynalova izləyicilərinin suallarını cavablandırıb.***

İfaçı ona edilən evlilik təklifinə belə reaksiya verib: "Aşiq olub, sevib evlənməyə niyyətliyəm. Sən öz yarını tapacaqsan, bir az səbr et".

Günel sevgilisini gizlətməsi iddiasına "Sevgilim var?" cavabını verib. Sənətçi daha sonra arzuladığı həyat yoldaşı gözləntisindən yazaraq "Önəmli olan bir-birimizi başa düşmək, danışa, əylənə, dəyər bilməkdir. Hörmət, sevgi önəmlidir. Özündən əmin, nə istədiyini bilərək sevgisindən, eşqindən əmin olan ciddi, dəyişməyəcək biri. Məni diqqətsiz qoyan adamı istəməyəcəyəm. Məndən xəbərsiz olmasın. İki əli qanda olsa bildirsin. Xarici ölkədə yaşamaq üçün sənəti buraxmaq önəmli deyil. Sənəti, mahnı oxumağı, səhnədə olmağı çox sevirəm. Diləyimi Allah bilir" sözlərini əlavə edib.

Sənətçinin "Toyunuz nə vaxtdır? Ümid edirəm, tez bir vaxtda olar" sualına yazdığı "Bəli, bu il" cavabı isə diqqət çəkib.

# Cavanşir Məmmədov: "Lalə Azərtaş efirdə məndən üzr istəsin"



***Xəbər verdiyimiz kimi, Əməkdar artist Cavanşir Məmmədovun qızı Xatirə Məmmədova ilə qeyri-rəsmi nikahda olan Türkiyə vətəndaşı Kemal Mustafa İblinin apellyasiya şikayəti təmin edilməyib.***

Məsələ ilə bağlı Axşam.az-a açıqlama verən C.Məmmədov bunları söyləyib: "Bakı Şəhər Baş Polis İdarəsinin Ağır Cinayətlərə Dair İstintaq şöbəsində mən və digər maddi zərərçəkmişlərin şikayəti ilə Türkiyə vətəndaşı Kemal Mustafa İblinin başlanan cinayyət işi 178.3.2-ci (Dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə yekunlaşıb. Məhkəmə prosesi şahidlərin, maddi zərərçəkənlərin, vəkillərin iştirakı ilə yekunlaşıb. Mustafa Kamalın etdiyi cinayyət tam sübuta yetirilib, o, 6 il 6 ay azadlıqdan məhrum edilib. Apellyasiya məhkəməsində də işə baxıldı, qərar qüvvədə saxlanıldı. Bununla da məhkəmə prossesi yekunlaşdı".

C.Məmmədov aparıcı Lalə Azərtaşa səslənərək, ondan üzr istəməsini tələb edib: "Qarşı tərəfin mənə və digər zərərçəkənlərə ödəyəcəyi puldan əvvəl tələbim var: çıxıb məndən, ailəmdən üzr istəsin. Eyni zamanda aparıcı Lalə Azərtaş da üzr istəyəcək. Çünki məlumatı o, "Təsir dairəsi" verilişində yaydı. Məhkəməyə müraciət etməmişəm, humanist yanaşıram. Xahiş edirəm ki, efirdə etiraf etsinlər. Orada mənim ailəmin şərəf və ləyaqəti təhqir edilib. Bunu etiraf edəndən sonra pulu verə bilsə, qəbul edəcəyəm. Üzr istəməsə, mənə pul lazım deyil. Namus-qeyrətimi pula satan deyiləm. Lalə Azərtaş efirdə demişdi ki, Mustafanın dələduzluğu sübut edilsin, onu efirdə elə təqdim edəcəyəm. Söz verilibsə, buna əməl edilməlidir".

Qeyd edək ki, C.Məmmədovun qızı Xatirə ilə qeyri-rəsmi nikahda olduğunu iddia edən Mustafa İbli "Təsir dairəsi" verilişinə qatılaraq, aparıcı Lalə Azərtaşdan yardım istəyib. Həmin vaxt L.Azərtaşla C.Məmmədov arasında mübahisə yaşanmışdı. Cavanşir Məmmədov hüquq-mühafizə orqanlarına müraciət edərək Kemal Mustafa İbli tərəfindən aldadıldığını bildirib. Kemal Mustafa İblinin Cavanşir Məmmədovdan 13 000 manat və 126 500 dollar aldığı və geri qaytarmadığı iddia olunub. M. İbli barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. Mustafa təqsirli bilinərək 6 il 6 ay azadlıqdan məhrum edilib. Qərardan narazı qalan Mustafa apellyasiya məhkəməsinə şikayət etmişdi.



# Könül Kərimova: "Gəlinim evdə otursun, işləməsin"

***Əməkdar artist Könül Kərimova oğlunun müğənni ilə ailə qurmasına münasibət bildirib.***

"Tarixin bir günü" verilişində qonaq olan sənətçi bunları deyib: "Müğənndən müğənniyə fərq var. Niyə də olmasın. Heç bir maneə yoxdur. Sadəcə bu işin çətinliyini, dərinliyini bildiyimə görə, istəyirəm ki, gəlinim evimdə olsun. İşləməsin. Mən isti ocağıma, evimə günlərlə, həftələrlə həsrət qalmışam. İstəmirəm gəlini evdə tapa bilməyim. İstəyirəm gəlinim evdə olsun".

Könül Kərimova gələcək gəlininin bank və ya səhiyyə işçisi kimi işləməsinə etiraz etmədiyini vurğulayıb.

# Natavan ayrıldığını dediyi Dadonun görüntülərini paylaşdı

***Müğənni Natavan Həbibi ayrıldığını dediyi keçmiş həyat yoldaşı, reper Səid Əliyevin (Dado) görüntülərini paylaşıb.***



Video Natavanın evində lentə alınıb. Görüntüdə Dado və Natavanın oğlu Zeyd də yer alıb.

Sözügedən videonu reper də öz səhifəsində yerləşdirib. Natavanın paylaşımı isə müzakirələrə səbəb olub. Bir çoxları onların yenidən barışdığını iddia edib.

Qeyd edək ki, Natavanla Dado 2017-ci ildə ailə qurub və bir neçə ay sonra ayrılıblar. İfaçılar dəfələrlə barışıb, ayrılıb. Bir müddət əvvəl isə Natavan Dadonun məhkəməyə gəlmədiyini, rəsmi boşana bilmədiklərini açıqlamışdı. Dado isə uşağını görə bilməməkdən şikayətlənmişdi. Bu günlərdə isə reper "Arada aramızda sıxıntılar oldu, sonra bir-birimizi başa düşdük. Natavanla mənim münasibətimdə üçüncü şəxslərin müdaxiləsi vardı. Sonda başa düşdük ki, evlənmək bizim kimi insanlar üçün deyil" sözlərini söyləyib.

# Bu şəxslər vəzifəyə xüsusi rütbə verilmədən təyin olunacaq

***Miqrasiya orqanlarında sınaq müddəti müəyyən edilmiş şəxslər vəzifəyə xüsusi rütbə verilmədən təyin olunacaq və həmin müddətdə yalnız vəzifə maaşı alacaqlar.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik layihəsində əksini tapıb.

Layihədə qeyd edilib ki, ilk dəfə miqrasiya orqanlarına qulluğa qəbul edilən şəxslər üçün daxil olduqları vəzifədən və hazırlıq səviyyələrindən asılı olaraq 3 aydan 6 aya qədər sınaq müddəti (kiçik xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə qulluğa qəbul edilən şəxslər üçün yalnız üç aylıq sınaq müddəti) müəyyən edilir.

Sınaq müddəti müəyyən edilmiş şəxslər müvafiq vəzifəyə xüsusi rütbə verilmədən təyin olunur və onlar həmin müddət ərzində yalnız vəzifə maaşı alacaq.

# 11 dövlət qurumunda vəzifələrin tutulması üçün müsahibə elan edildi

***11 dövlət qurumunda vəzifələrin tutulması məqsədilə daxili müsahibə elanı verilib.***



Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən (DİM) məlumat verilib. Bildirilib ki, ümumilikdə Mədəniyyət Nazirliyində 16, İqtisadiyyat Nazirliyində 10, Maliyyə Nazirliyində 10, Ekologiya və Təbii Sərvətlər Nazirliyində 5, Səhiyyə Nazirliyində 5, Gənclər və İdman Nazirliyində 4, Dövlət Turizm Agentliyində 3, Audiovizual Şurada 2, Kənd Təsərrüfatı Nazirliyində 1, Hesablama Palatasında 1, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində 1 vakant vəzifə daxili müsahibə elanına çıxarılıb.

Daxili müsahibəyə çıxarılan vəzifələr arasında ən yüksək vəzifə inzibati vəzifələrin 3-cü təsnifatına uyğun olan Gənclər və İdman Nazirliyinin aparat rəhbəri vəzifəsidir.

Qanunvericiliyin tələblərinə uyğun olaraq, daxili müsahibə üzrə sənəd qəbulu elektron qaydada həyata keçirilir. Daxili müsahibə üzrə sənəd qəbulunun elektron qaydada həyata keçirilməsi vətəndaşların rahatlığının təmin edilməsi, vaxt itkisinin və maliyyə xərclərinin qarşısının alınması, habelə Mərkəz tərəfindən göstərilən dövlət xidmətlərinin daha əlçatan olmasına imkan verir.

Daxili müsahibədə aşağıdakı şəxslər iştirak hüququna malikdir:

Vakant vəzifəni təqdim etmiş dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları;

Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatlarının ixtisarı ilə əlaqədar daxili müsahibə elan edilən dövlət orqanında ehtiyat kadr kimi saxlanılan şəxslər;

1-3-cü kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin 1-3-cü təsnifatlarına uyğun olan vəzifələrə, habelə mərkəzi icra hakimiyyəti orqanlarında, onlara bərabər tutulan orqanlarda (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) şöbə müdiri, rəhbərin müşaviri və rəhbərin köməkçisi vəzifələrinə iddia edən şəxslər.

Daxili müsahibədə iştirak etmək istəyən namizədlər 14 sentyabr 2023-cü il tarixindən 28 sentyabr 2023-cü il saat 18:00-dək Mərkəzin internet portalında "Dövlət qulluğu üzrə müraciət Forması"nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.

# Anar Kərimovun nazir olduğu dövrlə bağlı yeni qalmaqal

## Sabiq rəisi həbs olunan Dövlət Xidmətində ondan sonra da ciddi nöqsanlara yol verildiyi üzə çıxdı

***Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində yeni nöqsanlar aşkarlanıb. Belə ki, bu quruma ayrılmış dövlət vəsaitinin və digər dövlət əmlakının istifadəsi və idarə olunmasının qüvvədə olan hüquqi aktların tələblərinə uyğunluğunun qiymətləndirilməsi məqsədilə aparılmış yoxlama nəticəsində ciddi qanunsuzluq faktları ortaya çıxb.***

2020-2022-ci illər üzrə dövlət büdcəsindən Xidmətə yönəldilən 22214,1 min manat vəsaiti əhatə edən audit Hesablama Palatası tərəfindən həyata keçirilib.

Məlum olub ki, Xidmətin nəzarət sahəsinə aid edilən 4331 ədəd daşınmaz tarix və mədəniyyət abidələrinin 87,9%-nin (3809 abidə) pasportlaşması təşkil edilməyib, 94,7%-nin (4102 abidə) mühafizə zonaları təyin edilməyib, 86,1%-nin (3730 abidə) balans mənsubiyyəti müəyyən edilməyib, abidələrin qorunması və istifadəsi üzrə tələblərin pozulmasına görə 17 halda cərimə tətbiq edilməyib, bir sıra hallarda isə tətbiq edilmiş cərimə məbləğlərinin dövlət büdcəsinə ödənilməsi təmin olunmayıb.Xidmət tərəfindən podratçılar və digər icraçılarla bağlanılmış müqavilələrin şərtlərinə tam əməl edilməyib, müqavilənin bitmə müddətinə yaranmış debitor borcun bağlanması təmin edilməyib, satınalma müqaviləsinin müddətində işlərin başa çatdırılmaması fonunda 3 halda podratçıya artıq vəsait ödənilib, işlərin başa çatdırılması müddətinin pozulmasına (gecikməyə) görə 2 halda cərimə məbləği icraçılara tətbiq edilməyib.

Auditlə əhatə olunan obyektlər üzrə layihə-smeta sənədlərinin və yerinə yetirilmiş işlərin qəbulu aktlarının tikinti norma və qaydalarına uyğunluğu təmin edilməyib, əsaslı təmir və yenidən qurma işləri üzrə yerinə yetirilmiş işlərin dəyərinin, həmçinin binaların sökülməsi və mədəniyyət obyektlərində ilkin təmir-bərpa işləri yerinə yetirilmiş iş həcmlərinin qəbul aktlarında əhəmiyyətli dərəcədə artıq göstərildiyi müəyyən edilib.

Xidmətin fəaliyyətindəki nöqsanların bir qismi də dövlət satınalmaları ilə bağlı olub, yerinə yetirilməyən iş və xidmətlər üzrə vəsait ödənilməsi halları, həmçinin bir sıra satınalma prosedurlarının pozulması halları olub.

Aparılmış inventarizasiya nəticəsində əsas vəsaitlər üzrə çatışmazlıqların müəyyən edilməsi, yaranmış debitor borc məbləğinin uçotdan yayındırılaraq maliyyə hesabatlarında əks etdirilməməsi, yaranan öhdəliyə görə kreditor borc məbləğinin uçotda artırılması və bu kimi halların xarakterik olması, ümumilikdə Xidmət üzrə nəzarət mexanizmlərinin tətbiq edilməməsi, aktivlərin uçotunun aparılması prinsiplərinin pozulması maliyyə hesabatlarında fərqlərə və təhriflərə yol açmaqla maliyyə vəziyyətinin düzgün qiymətləndirilməsində əsaslı risk amillərini formalaşdırıb.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində dövlət vəsaitinin və digər dövlət əmlakının istifadəsi və idarə olunmasının auditi üzrə aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal olunması nəzərə alınaraq auditin nəticələrinə dair müvafiq materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

"Unikal" xatırladır ki, auditin əhatə etdiyi dövrdə Mədəniyyət naziri Anar Kərimov olub.



Nazirliyin tabeliyindəki adıçəkilən Dövlət Xidmətinə (DTX) isə 2020-ci ilədək Zakir Sultanov rəhbərlik edib. Həmin ilin mayında o, Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Nazirliyində keçirdiyi əməliyyat zamanı saxlanılıb. Z.Sultanov Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə), 308.2-ci (vəzifə səlahiyytlərindən sui-istifadə ) maddəsi ilə ittiham olunaraq Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib. Sonradan Bakı Apellyasiya Məhkəməsi həbs müddətini 5 il 6 aya endirib.

2020-ci ildən bu ilin martınadək Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə rəis təyinatı gerçəkləşməyib.

Prezidentin 2023-cü il martın 1-də imzaladığı Sərəncama əsasən, həmin posta Səbinə Hacıyeva təyin olunub. Əldə etdiyimiz məlumata görə, Hesablama Palatasının Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindəki yoxlamaları da məhz yeni rəis təyinatından sonra başlayıb və əvvəlki iki ildə bu qurumda yenə də müəyyən ciddi nöqsanlara yol verildiyi ortaya çıxıb.

Beləliklə, aydın olur ki, adıçəkilən Dövlət Xidmətində qanunsuzluqlar Anar Kərimovun mədəniyyət naziri olduğu dövrdə də davam etdirilib. Yəni, Əbülfəs Qarayevin mədəniyyət naziri, Zakir Sultanovun isə Xidmət rəisi olduğu zamanla müqayisədə dəyişən çox şey olmayıb.

Onu da qeyd edək ki, Anar müəllimin nazir olduğu zamanda da Mədəniyyət Nazirliyində DTX tərəfindən əməliyyat həyata keçirilmiş, bəzi vəzifəli şəxslər saxlanılmışdı. Bundan qısa müddət sonra - 22 dekabr 2022-ci ildə A.Kərimov vəzifəsindən azad edilmişdi.

Sabiq nazir hazırda İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatında (ISESCO) Tərəfdaşlıq və Beynəlxalq Əməkdaşlıq sektorunun müdiri kimi çalışır. O həmin vəzifəyə bir müddət əvvəl təyin olunub.

***Toğrul Əliyev***

# “Təhdid yaradan hərbi hədəflər vurulacaq” - Ermənistana sərt xəbərdarlıq

***Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat katibi Ayxan Hacızadə Ermənistan Xarici İşlər Nazirliyinin 13 sentyabr tarixli bəyanatına cavab verib.***

”Unikal”ın məlumatına görə, Ayxan Hacızadə bildirib ki, ötən ilin sentyabr ayında, eləcə də 2021-ci ilin may və noyabr aylarında Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı törədilmiş növbəti təxribatlara cavab olaraq ölkəmizin gördüyü tədbirlərin nəticələrini Ermənistan ərazilərinin işğalı kimi təqdim edilməsi Ermənistan tərəfinin siyasi avantürasının tərkib hissəsidir.

“Azərbaycanın suveren torpaqlarını 30 ilə yaxın müddətdə işğal altında saxlayan, 2020-ci il Vətən müharibəsinin nəticələrinə baxmayaraq, Azərbaycana məxsus 8 kəndi Azərbaycana təhvil verməyən, üçtərəfli bəyanata zidd olaraq, erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən hələ də çıxarmayan, davamlı hərbi təxribatlar törədən Ermənistanın Azərbaycanı işğalda təqsirləndirməsi saxtakarlıq nümunəsi olmaqla yanaşı, reallıqların təhrif edilməsidir. Müharibə və hərbi əməliyyatlar zamanı beynəlxalq humanitar hüququn pozuntularını müvafiq olaraq araşdıran, bu kimi halların törədilməsində şübhəli bilinən şəxslərlə bağlı istintaq aparan Azərbaycandan fərqli olaraq, Ermənistan tərəfi Xocalı soyqırımı daxil, azərbaycanlılara qarşı insanlıq əleyhinə törətdiyi cinayətlərdən fəxrlə danışması hər kəsə məlumdur. Azərbaycanın Qarabağ bölgəsinə istinadlarında Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü şübhə altına alan Ermənistan tərəfinin bölgədə qüvvə toplamasını örtbasdır etməsi və hər an törədə biləcəyi təxribat səylərindən fikir yayındırmaq cəhdləri ciddi təhdid mənbəyidir. Bölgədə sülh və sabitliyin əsas şərti Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı sözdə və əməldə iddialardan əl çəkməsi, bütün erməni silahlı qüvvələrini ərazilərimizdən çıxarması, revanşist siyasətə və əməllərə son qoymaqdır”, - XİN rəsmisi qeyd edib.

Diqqətçəkən məqam odur ki, Azərbaycan Ordusu da sərhəddə mövcud olan gərginlik fonunda lazımi mesajını verib. Belə ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə bölmələri təlim zamanı İsrail istehsalı olan “İldırım 8-ER” (“Barak-8”) zenit-raket kompleksindən raketlər buraxıb. Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, “Barak-8”: Start mövqeyinə çıxarılıb, döyüş tətbiqinə hazırlanıb, şərti düşmən tərəfindən atılan ballistik raketin aşkar olunaraq məhv edilməsi üzrə tapşırıqları uğurla yerinə yetirib.



Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Azərbaycan Ordusunun “Barak-8”i təlimə çıxarması ölkəyə təhdidlərin səngimədiyi, regionda gərginliyin artdığı dövrə təsadüf edir. Onun sözlərinə görə, mümkün mesaj bundan ibarətdir ki, Azərbaycan hava məkanının təhlükəsizliyini qorumaq üçün istənilən hədəfi vura bilər: Məlumat üçün bildirək ki, “Barak-8”in təlimi ilə bağlı Müdafiə Nazirliyinin xüsusi vurğusu Azərbaycanla İsrail arasında dərinləşən strateji əməkdaşlığın fonunda diqqət cəlb edir. Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra hava hücumundan müdafiə sahəsində olan boşluqları təhlil edib onları etibarlı vasitələrlə doldurur. Bu mənada Azərbaycanın hava hücumundan müdafiə sistemlərini təkmilləşdirməsi prosesi gedir və İsraildən yeni növ silahların alınması prioritetdir. “Barak-8”lə ötürülən mesaj Azərbaycan-İsrail əlaqələrindəki hərbi əməkdaşlıq dinamikasını qeyd etməyə əsas verir. Nəzərə almaq lazımdır ki, Ermənistan Azərbaycanla sərhəddə mövqelərimizə qarşı zərbə dronlarından istifadə edir. Onların zərərsizləşdirilməsi üçün müxtəlif üsullar Azərbaycanda mövcuddur. Lakin Müdafiə Nazirliyinin məhz “Barak-8”in altını qırmızı xətlə cızması xüsusilə diqqət çəkir. Azərbaycan özünü hava təhdidlərindən müdafiə etməkdən ötrü istənilən hədəfi vurmaq hüququnu özündə saxlayır”.

Politoloq Məhəmməd Əsədullazadə isə bildirib ki, Ermənistan danışıqlar prosesindən uzaqlaşıb, Hindistan, Fransa və İranın siyasi dəstəyi ilə müharibəyə hazırlaşır. Onun fikrincə, Ermənistan rəhbərliyi hesab edir ki, Azərbaycana qarşı əks hücumlar həyata keçirərək strateji yüksəklikləri tutacaq və Qarabağ məsələsini beynəlxalq gündəmə çıxaracaq: “Bununla da rəsmi Bakıya qarşı beynəlxalq təzyiq formalaşdırmağa nail olacaq. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə sülh təşəbbüsü ilə çıxış edib və Ermənistan tərəfinə 5 təməl prinsipləri təqdim olunub. Brüssel və Vaşinqton da sülhün əsas tərəfdarının məhz Azərbaycan olduğunu yaxşı bilir. Amma rəsmi İrəvan qeyri-adekvat tələblər irəli sürərək yenidən silahlanmağa cəhd göstərir. Proseslər Ermənistan rəhbərliyinin sülh müqaviləsinin imzalanmasında maraqlı olmadığını və revanşist meyllərə kökləndiyini göstərir. Bununla da Paşinyan və onun komandası danışıqlar prosesini pozmağa çalışır. Ordu korpuslarının Kəlbəcərdən Qafana kimi cəmlənməsi isə Azərbaycana qarşı hərbi əməliyyatların başladılması planından xəbər verir”.

Politoloq onu da nəzərə çatdırıb ki, Ermənistan Baş naziri ”Politco” nəşrinə müsahibəsində Qarabağ daxil olmaqla, Azərbaycanın 86.6 min kvadrat kilometr ərazisini tanıdığını vurğulayıb: “Qeyd edim ki, N.Paşinyanın ötən həftə guya Azərbaycanın sərhəddə ordu yığdığına görə dövlət başçılarına Azərbaycandan şikayət zəngi də müsbət nəticə vermədi. Hətta Fransanın Ermənistana siyasi dəstəyi proseslərə təsir etmədi. Amma, Ermənistan çalışırdı ki, Qərbin siyasi dəstəyini alaraq Azərbaycana qarşı hərbi əməliyyatlar keçirsin. Azərbaycan prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı siyasət müsbət nəticəsini verir. N. Paşinyanın Azərbaycanın Qarabağ daxil olmaqla ərazi bütövlüyünü tanıması, geri çəkildiyini göstərir. Həmçinin Qarabağdakı separatçılara təklif göndərib ki, Azərbaycanla anlaşın. Göründüyü kimi, Ermənistan reallıqları qəbul etmək məcburiyyətindədir. Ermənistana Qərbdən dəstək verilmədi. Əlbəttə ki, bu, Azərbaycanın diplomatik qələbəsidir. Artıq İran da Ermənistanın apardığı siyasətdən narazılığını siyasi leksikona gətirib. Artıq Ermənistan rəhbərliyinə Türkiyə və Azərbaycan tərəfindən ciddi təzyiqlər, Qərbdən isə dəstəyin verilməməsi N. Paşinyanın geri çəkilməsi ilə nəticələndi. Azərbaycan bu ilin sonuna qədər silahlı erməni birləşmələrinin ləğvini də həyata keçirəcək. Qarabağdakı separatizmin axır günlərini yaşadığını Rusiya rəhbərliyi də qəbul edib”.

***M.İbrahimli***



## Rusiya və Şimali Koreya liderləri nələri müzakirə etdilər? - Məmmədyarov danışdı

***Xəbər verdiyimiz kimi, Şimali Koreya lideri Kim Çen In Rusiyaya səfər edib. Sentyabrın 13-də Amur vilayətində “Vostoçnıy” kosmodromunda Koreya lideri ilə Rusiya Prezidenti Vladimir Putin arasında görüş keçirilib. Tərəflər arasında danışıqlar 5 saatdan çox davam edib.***

Bəs görəsən, bu səfərdə daha çox hansı məsələlər müzakirə olunub?

Azərbaycanın keçmiş xarici işlər naziri Elmar Məmmədyarov “Unikal”a bildirib ki, bu görüş Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Şimali Koreyaya səfərindən sonra oldu. Eks-nazir düşünür ki, Şimali Koreya və Rusiya liderlərinin görüşündə silah-sursat məsələləri müzakirə olunub:

“Prezidentlər arasında keçirilən görüşdə Rusiyanın müdafiə naziri Sergey Şoyqu da iştirak edirdi. Yəqin ki, ilk növbədə silah-sursat məsələsi müzakirə olunub. Görünür ki, Ukraynada vəziyyət o qədər yaxşı deyil, onlara silah lazımdır. İnanmıram ki, iqtisadi baxımdan Rusiya-Şimali Koreya ticarət dövriyyəsinin artırılması ilə bağlı hansısa imkan olsun”.

***Anar Kəlbiyev***

## Fərhad Əhmədov Avropa Məhkəməsində qalib gəldi



***Xəbər verdiyimiz kimi, Avropa İttifaqı rusiyalı iş adamları Qriqori Berezkin, Aleksandr Şulqin, polkovnik Georgi Şuvayev və Rusiya vətəndaşı olan Fərhad Əhmədovu sanksiya siyahısından çıxarıb.***

”Unikal” xəbər verir ki, bu barədə Aİ-nin rəsmi sənədində deyilir.

Qeyd edək ki, əslən azərbaycanlı olan Fərhad Əhmədova qarşı məhdudiyyətlər sentyabrın 15-də başa çatacaq. Bundan əvvəl o, sanksiyaların ləğvi tələbi ilə Avropa Məhkəməsinə müraciət etmişdi.

***Ağarza Elçinoğlu***

## Azərbaycandan sığınacaq almaq üçün müraciət edənlərin sayı açıqlandı

***2023-cü ilin 8 ayı ərzində 92 nəfər (ailə üzvləri ilə birlikdə 138 nəfər) Azərbaycandan sığınacaq almaq üçün müraciət edib.***

”Unikal” xəbər verir ki, bu barədə Dövlət Miqrasiya Xidmətindən report-a bildirilib.

Məlumata görə, 2022-ci ildə 169 ərizəçinin (ailə üzvləri ilə birlikdə 298 nəfər), 2023-cü ilin 8 ayı ərzində isə 92 ərizəçinin (ailə üzvləri ilə birlikdə 138 nəfər) qaçqın statusu verilməsi haqqında vəsatəti Dövlət Miqrasiya Xidmətində qeydə alınıb.

Ərizəçilər arasında Cənubi Asiya ölkələrinin vətəndaşları üstünlük təşkil edirlər.

# Prezident Azərbaycanın yəhudi icmasını təbrik etdi



***Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını təbrik edib.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın yəhudi icmasını yeni il bayramınız Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda tarixən olduğu kimi, bu gün də yüksək birgəyaşayış mədəniyyəti, ayrı-ayrı xalqların və dinlərin nümayəndələri arasında nümunəvi dostluq və qardaşlıq münasibətləri hökm sürür. Müasir demokratik prinsiplər əsasında insan hüquq və azadlıqlarının təminatı, etnik azlıqların dil və mədəniyyətinin qorunub saxlanılması, multikultural dəyərlərin və tolerantlıq ənənələrinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindəndir.

Etnomədəni rəngarəngliyi ilə seçilən ölkəmizdə yüz illərdir məskunlaşan və Azərbaycanı özünə doğma vətən bilən yəhudi icması sülh, əmin-amanlıq şəraitində yaşayaraq heç vaxt antisemitizmə, ayrı-seçkiliyə məruz qalmamış, cəmiyyətimizin ayrılmaz hissəsinə və bərabərhüquqlu üzvünə çevrilmişdir. Əlamətdar haldır ki, yəhudi əsilli vətəndaşlarımız respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edir, ümumi evimiz olan Azərbaycanın inkişafı və tərəqqisi naminə səylərini əsirgəmirlər.

Əziz dostlar!

Roş ha-Şana yeniləşmə, xoş müjdələr, mənəvi saflıq bayramıdır. Bu əziz gün münasibətilə bir daha hamınıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Bayramınız mübarək olsun!".

# İlham Əliyev Berdiməhəmmədovun təltifolunma mərasimində iştirak edib

***Sentyabrın 14-də Düşənbədə Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun təltifolunma mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

# Tacikistan və Azərbaycan prezidentləri təkbətək görüşdü

***Sentyabrın 14-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.***

"Unikal" xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyevi salamlayan Prezident Emoməli Rəhmon dedi:

-Hörmətli İlham Heydər oğlu, Sizi Tacikistanda salamlayıram. Elə bu yaxınlarda biz birlikdə Sizin Tacikistana dövlət səfərinizi həyata keçirdik. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzu edirəm. Sammitdə - Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak et-



mək üçün dəvətimizi qəbul etdiyinizə görə sağ olun.

Prezident İlham Əliyev: Emoməli Şaripoviç, sağ olun. İlk növbədə, bu mühüm tədbirdə fəxri qonaq qismində iştirak etmək üçün dəvətinizə görə təşəkkürümü bildirmək istərdim. Mən bunu çox yüksək qiymətləndirirəm. Belə mühüm tədbirdə iştirak etmək mənim üçün böyük şərəfdir və xüsusilə yenidən gözəl Düşənbə şəhərində olmaq xoşdur.

Prezident Emoməli Rəhmon: Sağ olun.

Prezident İlham Əliyev: Siz mənim çox uğurla və yaxşı nəticələrlə keçən dövlət səfərimi qeyd etdiniz. Mən dialoqumuzu davam etdirmək məqsədilə Sizin üçün əlverişli vaxtda Azərbaycana dövlət səfəri etməyinizlə bağlı artıq Sizə rəsmi məktub göndərmişəm.

Prezident Emoməli Rəhmon: Çox Sağ olun.

# Türkiyənin Baş prokuroru Şuşa və Füzuliyə səfər edib

***Ölkəmizdə səfərdə olan Türkiyənin Baş prokuroru Bəkir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti Şuşaya səfər edib.***

"Unikal" xəbər verir ki, səfər iştirakçıları Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı qələbə nəticəsində Şuşaya səfər etmək imkanı əldə etdiklərini, bu tarixi torpaqda olmaqdan sevinc və qürür hissi keçirdiklərini bildirib, Cıdır düzü, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Qala divarları, Gəncə qapısı və bir sıra tarixi-mədəni abidələri ziyarət edib, vandalizmin ağır nəticələrini təəssüf hissi ilə müşahidə edib, mədəniyyət paytaxtımızda görülmüş bərpa-quruculuq işləri ilə yaxından tanış olublar.

Səfər çərçivəsində həmçinin Füzuli rayonunda olan nümayəndə heyəti orada aparılan yenidənqurma işləri, həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, o cümlədən yeni salınmış yaşayış massivləri və digər sosial təyinatlı obyektlərin onlarda böyük təəssürat yaratdığını qeyd ediblər.

Qonaqlar Türkiyənin Vətən müharibəsində ölkəmizə gös-



tərdiyi mənəvi-siyasi dəstəyin davamı olaraq quruculuq işlərində də qardaş ölkənin yaxından iştirakının önəmini vurğulayıblar.

Türkiyənin Baş prokuroru Bəkir Şahinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri davam edir.

# Prezidentin köməkçisi Göyçayda məktəb açılışında

***Göyçayda yeni məktəb binasının açılış mərasimi keçirilib.***

"Unikal"ın məlumatına görə, sentyabrın 14-də Göyçay şəhər M.Fuzuli adına 6 nömrəli tam orta məktəbin yeni inşa olunan binasının açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Elm və Təhsil naziri Emin Əmrullayev, Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, idarənin struktur bölmə rəhbərləri və məktəbin müəllim kollektivi iştirak edib.



Mərasim iştirakçıları əvvəlcə yeni tədris ocağında yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, yenidən tikilmiş məktəb 1076 şagird yerlikdir. Məktəbdə 34 sinif otağı ilə yanaşı, hər cür avadanlıqla təchiz olunmuş məktəbəhazırlıq otağı, fizika, kimya, biologiya, texnologiya, informatika, çağırışaqədərki hazırlıq, linqafon kabinetləri, tibb otağı, kitabxana, akt və idman zalları, yeməkxana mövcuddur.

Açılış mərasimindən sonra Elm və Təhsil naziri Emin Əmrullayev məktəbin müəllim kollektivi ilə görüşüb və yeni tədris ili, eləcə də məktəb binasının açılışı münasibətilə təhsil işçilərini təbrik edərək onlara uğurlar arzulayıb.

Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən tikilən məktəbdə hazırda 500 şagirdin təlim-tərbiyəsi ilə 71 müəllim məşğul olur.

***Şahnəzər Başirov***

# Düşmən Gədəbəyi atəşə tutdu

***Sentyabrın 14-ü saat 19:35-də Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Zamanlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutub.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

Bundan başqa, saat 19:05-dən 19:25-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# President İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edib

***Sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə fəxri qonaq qismində iştirak edib. Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı. Sonra birgə foto çəkdirildi.

Tacikistan Prezidenti Emoməli Rəhmon, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tədbirdə çıxış etdilər.

Sonra çıxış üçün söz dövlətimizin başçısına verildi.

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli Emoməli Şaripoviç.



Hörmətli dövlət başçıları, əziz dostlar.

Əvvəlcə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünün işində fəxri qonaq kimi iştirak etmək məqsədilə dəvətə görə Tacikistan Prezidenti, hörmətli Emoməli Şaripoviç Rəhmona təşəkkür etmək istərdim. Eyni zamanda, bu tədbirdə Azərbaycanın iştirakına verdikləri dəstəyə görə hörmətli həmkarlarıma minnətdarlığımı bildirirəm.

Mən bu il qardaş Tacikistana ikinci dəfə səfər edirəm. Apreldəki dövlət səfərim, səfər çərçivəsində qəbul olunmuş qərarlar və imzalanmış sənədlər münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdi. Tacikistan Prezidentinin Azərbaycana dövlət səfərini səbirsizliklə gözləyirik. Əminəm ki, səfər əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edəcək. Bu fürsətdən istifadə edərək dost Tacikistan xalqını Müstəqillik Günü münasibətilə təbrik etmək istəyirəm.

Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir.

Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

Mən Məşvərət Şurasının işində ilk dəfədir iştirak edirəm və əminliyimi bildirirəm ki, regional əməkdaşlığın bu formatı ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacaq.

Son iki il ərzində mən Mərkəzi Asiya dövlətlərinə doqquz səfər etmişəm. Bu müddət ərzində bütün qardaş dövlətlərin başçıları Azərbaycana dəfələrlə səfərlər ediblər. İlin sonuna qədər qarşılıqlı səfərlərin fəal dinamikası davam etdiriləcək.

İkitərəfli əməkdaşlığın mühüm meyarlarından biri qarşılıqlı ticarətin və sərmayələrin artımıdır. Sevindirici haldır ki, həmin iki istiqamət üzrə göstəricilər davamlı artıma malikdir. Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb.

Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətlərin bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük.

Nəqliyyat və logistika sahəsi münasibətlərimizdə mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir. Əks istiqamətdə tranzitin əhəmiyyəti də az deyil. Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır.

Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir. Gələn il həmin yol ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır.

Azərbaycan Xəzərdə 50-dən artıq gəmidən ibarət ən iri ticarət donanmasına malikdir. Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin artan tələbatını nəzərə alaraq, biz gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi üzərində fəal çalışırıq. Yeni sərmayə layihələri başa çatdıqdan sonra, istehsal olunan tanker və quru yük daşıyan gəmilərin sayı bu gün ildə 6 gəmidən 10-15 gəmiyə qədər artacaq.

Daha böyük həcmdə tranzit yüklərini cəlb etmək üçün tariflərin optimallaşdırılmasını, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsini və ahəngdarlığını təmin etmək zəruridir. Tranzit daşımaların şəffaflığının və daşımalar prosesinin iştirakçıları üçün bərabər şərtlərin təmin edilməsində mühüm meyarlardan biri Şərq-Qərb nəqliyyat dəhlizinin rəqəmsallaşdırılmasıdır.

Ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal çalışdığımız "Rəqəmsal İpək Yolu" layihəsidir.

Hörmətli həmkarlar, bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nın yaradılmasının 25 ili tamam olur. Mən dəyərli dövlət başçılarına rəsmi dəvətləri göndərmişəm və bu ilin noyabrında Bakıda Sammitdə sizi görməkdən məmnun olaram.

Bu gün keçirilən görüşə dəvətə görə bütün dövlət başçılarına bir daha təşəkkürümü bildirmək istəyirəm və Mərkəzi Asiyanın qardaş xalqlarına sülh, əmin-amanlıq arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Qeyd edək ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin keçirilməsi təşəbbüsü 2017-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən irəli sürülüb. Birinci görüş Qazaxıstanda, ikinci görüş Özbəkistanda, üçüncüsü Türkmənistanda, dördüncüsü isə Qırğızıstanda keçirilib.



# Qarabağda yeni hərbi əməliyyatlar keçirilsin - 71 faiz "hə" deyir

***44 günlük müharibədən sonra imzalanmış üçtərəfli bəyanatın 4-cü bəndində sülhməramlı kontingentin erməni silahlı qüvvələrinin çıxarılmasına paralel yerləşdirilməsi öz əksini tapıb. Münaqişədən ötən müddət ərzində Ermənistanın Azərbaycanın Qarabağ bölgəsi daxil olmaqla ərazi bütövlüyünü tanımasına baxmayaraq, silahlı qruplaşmaların hələ də çıxarılmaması və davam edən təxribatlar növbəti hərbi əməliyyatların keçirilməsi mövzusunu gündəmə gətirib.***

Sosial Tədqiqatlar Mərkəzindən "Unikal"a verilən məlumata görə, STM mövzunun aktuallığını nəzərə alaraq, vətəndaşlar arasında rəy sorğusu keçirib.

İctimai rəyi öyrənmək məqsədilə respondentlərə ünvanlanan "Sizcə, Azərbaycan Qarabağda qanunsuz silahlı qruplaşmalara qarşı yeni hərbi əməliyyatlar keçirməlidirmi?" sualına iştirakçıların mühüm hissəsi - 71.3%-i "bəli" cavabını verib.

Sorğuda iştirak edənlərin 24.1%-i əks mövqedən çıxış edərək yeni hərbi əməliyyatların keçirilməsini istəmədiyini bildirib. Respondentlərin 4.6%-i bu suala cavab verməkdə çətinlik çəkib.

Nəticələri ötən ilin müxtəlif dövrləri üzrə müqayisə etdikdə, Sosial Tədqiqatlar Mərkəzinin 2022-ci ilin avqust ayında keçirdiyi rəy sorğusunda Qarabağda erməni silahlı qruplaşmalarına qarşı hərbi əməliyyatların keçirilməsini 80.5% respondent dəstəkləmişdi. 6.8%-i əks mövqedə qərarlaşmış, 12.7%-i bu suala cavab verməkdə çətinlik çəkmişdi.

Sentyabr ayında Qarabağda erməni silahlı qruplaşmalarına qarşı hərbi əməliyyatların keçirilməsini dəstəkləyənlər 85.0% təşkil etmişdi. 9.5% respondent yeni hərbi əməliyyatları dəstəkləməmişdi. 5.5%-i bu suala cavab verməkdə çətinlik çəkmişdi.

Rəy sorğusunun dekabr ayı üzrə göstəricilərində yeni hərbi əməliyyatların keçirilməsinə respondentlərin 48.0%-i dəstəyini ifadə etmişdi. Onların 39.6%-i yeni hərbi əməliyyatların keçirilməsi ilə bağlı əks mövqeyini ifadə etmişdi. 12.4%-i bu sualla bağlı rəyini ifadə etməkdə çətinlik çəkmişdi.

Qeyd edək ki, sorğunun sahə işi (məlumatların toplanılması) 2023-cü ilin 08 - 11 sentyabr tarixləri arasında icra olunub. Sorğular telefonla müsahibə formasında keçirilib və 18 yaşından yuxarı 390 respondent iştirak edib.

Sorğuda Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan, Şirvan-Salyan iqtisadi rayonları əhatə edilib. Respondentlərin gender bərabərliyi qorunmaqla seçmə çərçivəsi əhali sayına proporsional müəyyən edilib. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.



## Bu seçki dairələri ləğv edilir - İlqar Məmmədovdan iddia

***"Abşeron yarımadasından kənarda yerləşən bir neçə seçki dairəsi ləğv edilir, onların məntəqələri qonşu dairələrə verilir. Əvəzində, əsasən Abşeron yarımadasında yeni dairələr yaradılır. Tezliklə baş verəcək bu yerdəyişmə ölkə daxilindəki əhali köçü ilə bağlıdır".***

"Unikal" xəbər verir ki, bunu Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri İlqar Məmmədov "Facebook" hesabında yazıb. O bildirib ki, Şəkidə 114 saylı dairə, Lənkəranda 76 saylı dairə, Cəlilabadda 69 saylı dairə və başqaları ləğv olunur, əvəzində Sumqayıtda 2, Abşeronda isə 3 yeni dairə yaradılır: "Deputatların ümumi sayına bu dəyişiklik təsir etmir. Deputat sayı ayrı mövzudur. Bunları haradan bilirik? Sözügedən o 3 dairədə partiyamızın təqdim etdiyi Dairə Seçki Komissiyası üzvləri var və dünən MSK bizə şifahi şəkildə onların yerinə yeni dairələrdə üzv təklif etməli olduğumuzu bildirdi. Daxili köçün nəzərə alınması MSK-nın doğru addımıdır. Amma bu işdə şəffaflığı artırmaq çox önəmlidir. Hələlik, MSK-nın planı haqqında çox dumanlı təsəvvürümüz var, halbuki MSK bu işi cari inzibatçılıq məqsədi ilə deyil, seçkidə rəqabət aparan partiyalara bərabər şərait yaratmaqdan ötrü yerinə yetirməlidir. MSK partiyalar üçün bir mövzuda ən qısa zamanda bir toplantı təşkil eləsə, çox doğru addım olar", - deyə partiya sədri qeyd edib.

"Unikal" sözügedən dairələrdən Milli Məclisə deputat seçilən şəxslərin adlarını təqdim edir:

69 saylı seçki dairəsi - Fəzail İbrahimli

76 saylı seçki dairəsi - Ziyafət Əsgərov

114 saylı seçki dairəsi - Əli Məsimli.

69 saylı seçki dairəsindən deputat seçilən Fəzail İbrahimli "Unikal"a açıqlamasında bu məlumatın yalnış olduğunu bildirib: "Mən və köməkçim hər gün seçki dairəsi ilə əlaqə saxlayırıq. Bu gün də əlaqə saxladıq, və bu məsələdən məlumatsız olduqlarını bildirdilər. Maraqlıdır, İlqar Məmmədov bu məlumatları haradan alır? Bir daha vurğulayım ki, dairə fəaliyyətdədir və ləğv olunması ilə bağlı bizə hər hansı bir məlumat verilməyib", - deyə deputat qeyd edib.

76 saylı seçki dairəsindən deputat seçilən Ziyafət Əsgərov da saytımıza açıqlamasında İlqar Məmmədovun iddialarına münasibət bildirib: "Mən bu barədə heç nə eşitməmişəm. Məlumatım yoxdur. Yazırlar da...", - deputat qeyd edib.

***Murad İbrahimli***

# "Ermənistan əsgəri dərk edir ki, başqa torpaq uğrunda vuruşur"

## Aydın Mirzəzadə: "Ermənistan nə qədər istəyir sərhəddə qoşun yığsın, onlar yaxşı bilir ki, Azərbaycan tərəfi öz sərhədini qorumaq iqtidarındadır"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Ağdam-Xankəndi yolunun açılmasından, Ermənistanın tərəfinin törətdiyi təxribatlardan nəticə çıxarmamasından və növbəti təxribatlara hazırlaşmasından, Ermənistanla Rusiya arasında gərginliyin artmasından və s. məsələlərdən danışıb.***

***-Aydın müəllim, Ermənistan tərəfinin ötən il 12-14 sentyabrda sərhəddə törətdiyi təxribatlardan bir il ötür. Belə ki, düşmən Vətən müharibəsindən 2 il sonra sərhəddə genişmiqyaslı təxribat törətmək istəsə də, növbəti dəfə layiqli cavabını aldı. Ermənistan tərəfi bundan hansı nəticələr çıxarmalıdır?***

-Ermənistan nə 30 illik işğal siyasətinin məsuliyyətindən, nə 44 günlük Vətən müharibəsində aldığı ağır nəticələrdən, nə də sentyabr döyüşlərindən nəticə çıxarmayıb. Ermənistan cəmiyyəti hələ də ayılmayıb. Onlar qonşu xalqlarla normal yaşamağın vacibliyini dərk edə bilməyiblər. Təəssüf ki, bunların müxalifəti də iqtidarla eyni düşüncədədir. Sözdə Azərbaycanla normal münasibətlərdən danışırlar, amma bununla belə təxribatlarını yenə də davam etdirirlər. Hər sahədə təxribat etməyə çalışırlar. Hər gün Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutmasını, diversantların ərazimizə daxil olmasını, beynəlxalq birlikdə isə Azərbaycana iftira atmaları xəbərlərini eşidirik. Görünən odur ki, Ermənistan hələ də möcüzə gözləyir. Onlara elə gəlir ki, çirkin niyyətlərini həyata keçirən qüvvə ortaya çıxacaq. Vaxtilə hesab edirdilər ki, bunu Rusiya etməlidir. İndi bu məsuliyyəti ABŞ və Fransanın üstünə atmağa çalışırlar. Amma dərk etmirlər ki, heç kim Ermənistanın çirkin niyyətlərinin müəllifi olmayacaq. Onların qarşısında 90-cı illərin zəif Azərbaycanı deyil, 2023-cü ilin qüdrətli, nüfuzlu, öz hüququnu qorumağı bacaran Azərbaycan var. Sentyabr hadisələri də Azərbaycan dövlətçiliyinin, xalqının daxili ruhunu, gücünü, əsgərimizin rəşadətini göstərdi. Ermənistan nə qədər tez özünün uydurduğu dünyadan ayılacaqsa, bir o qədər onun üçün yaxşıdır. Belədə isə etdiyi istənilən təxribatın cavabını alacaq.

***-Bu günlərdə Rusiya QXC-nin Azərbaycanın Qarabağ iqtisadi rayonundakı erməniəsilli sakinlərə göndərdiyi ərzaq və qeyri-ərzaq məhsulları Ağdam-Xankəndi yolu ilə çatdırıldı. Hazırda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin göndərdiyi ərzaq yükü də yolda gözləyir. Bu yolun açılması ilə bağlı fikirlərinizi bilmək istərdik...***

-Azərbaycanın bir bölgəsindən digərinə daşınma həyata keçirildi. Bu birinci və axırıncı olmalı deyil. Bu yol işlək kommunikasiya xətlərindən biri olmalıdır. Qarabağ Azərbaycan ərazisidir və ora yükün haradan daşınacağını Azərbaycan özü həll edir. Doğrudur, müəyyən səbəblərə görə hələki orada Azərbaycan qanunları işləmir. Amma həmin gün heç də uzaqda deyil. Azərbaycan qəti şəkildə bildirdi ki, öz ərazisi daxilindəki məsələləri özü həll edəcək. Həmin bölgəyə yükün haradan gəlməsini ölkəmiz özü həll edəcək. Ən optimal Ağdam-Əsgəran yolunu hesab edirik. Ermənistanın da yükü Azərbaycanın sərhəd və gömrük qaydalarına riayət etməklə gəlib Ağdamdan keçə bilər. Azərbaycan yüklərinin də həmin əraziyə daxil olacağı gün heç də uzaqda deyil. Azərbaycan bununla özünün daxili məsələlərini özü həll etməyin növbəti nümunəsini ortaya qoydu.

***-Bildiyiniz kimi, diqqət çəkən məqamlardan biri də Ermənistan və Rusiya arasında gərginliyin artmasıdır. Bu günlərdə Ermənistanın ABŞ-la birgə keçirdiyi təlimlər və digər məsələlər də buna öz təsirini göstərir. Sizcə, bu ölkələr arasında münasibətlərin hazırkı həddə çatması nə ilə nəticələnə bilər?***

-Ermənistanın qətiyyətli mövqeyi yoxdur. Bu gün Rusiya ilə düşmən münasibətindədir, sabah bu ölkəni özünün bir nömrəli dostu elan edə bilər. Hazırda ABŞ-la təlimlər keçirir, növbəti gün bu ölkə ilə bir problem yaşansa, birinci ona daş atan Ermənistan olacaq. Ermənistanda dərin düşünən siyasətçi də yoxdur. Bir tərəfdən İranla dostluq edirlər, digər tərəfdən isə İranın ABŞ-la gərgin münasibəti olduğu halda bu ölkə ilə hərbi təlimlər keçirirlər. İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian erməni həmkarı Ararat Mirzoyana zəng edərək buna etirazını bildirib. Ermənistan eyni zamanda iki yox, bir neçə stulda oturmaq istəyir. Bir tərəfdən istəyir ki, Rusiya onun maliyyə problemlərini həll etsin, digər tərəfdən isə onların Azərbaycana qarşı təcavüzünü Qərb dövlətləri dəstəkləsin. Həmçinin, istəyirlər ki, İrana qarşı müsəlman dövləti kimi hərəkət etsinlər. Amma işğal etdiyi ərazilərdə 67 məsciddən 65-ni dağıdıb. Ermənistan prinsip etibarı ilə bir günün abu-havası ilə yaşayır. Bu isə heç də ölkə üçün uğurlu nəticələnə bilməz. Ermənistanın min illərlə dövləti olmayıb və dövlətçilik təcrübəsi yoxdur. Tarixi müəyyən bir təsadüfi kəsimində müstəqil olub. Onlara elə gəlir ki, gah onun, gah da bunun qabağına qaçmaqla dövlətçilik modeli yaradırlar. 30 ildə nə qazandılar? Bu illər ərzində hansı investisiyanı özünə cəlb etdi? Hansı nümunəvi layihə ortaya qoydu? Ortada təcavüzkar, qonşu dövlətlərin hamısına qarşı ərazi iddiası ilə çıxış edən, müttəfiqini hər gün dəyişən və eyni zamanda beynəlxalq aləmdə Fransadan başqa özünə bir dost qazana bilməmiş ölkə təcrübəsi var. Prinsip etibarı ilə çətin, tez-tez mövqeyini dəyişən ölkə ilə qonşuyuq. Ancaq bu qonşu bilməlidir ki, Azərbaycan müstəqil, güclü dövlətdir, beynəlxalq aləmdə nüfuzu var, öz problemlərini özü həll edir. Ona görə də Azərbaycanla ancaq hörmətlə danışmaq lazımdır. Daxili işlərimizə qarışmağa, sərhədlərimizi pozmağa qətiyyən imkan verməyəcəyik.



***-Son vaxtlar Ermənistanın mövqelərimizi atəşə tutması və sərhəddə canlı qüvvə, texnika toplaması müşahidə olunur. Bu, Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribata hazırlaşdığını göstərir. Düşmən növbəti dəfə belə bir addım atarsa, bu onlar üçün nə ilə nəticələnə bilər?***

-44 gündə genişmiqyaslı döyüşlər oldu və Azərbaycan öz sərhədinə çıxdı. Yenə Ermənistanın Azərbaycanla sərhəddə qoşun yığdığı bildirilir. Ancaq keyfiyyət baxımından Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında yerlə-göy qədər fərq var. Bizim müasir silahlara malik olan güclü Ordumuz var. Biz öz torpaqlarımız uğrunda vuruşuruq, Vətən uğrunda canımızı fəda etməyə hazırıq. Bunların hamısı Ermənistanda yoxdur. Ermənistan əsgəri dərk edir ki, başqa torpaq uğrunda vuruşur. Ermənistan silahlı qüvvələrinin texniki təchizatı heç də güclü deyil. Eyni zamanda, 44 günlük müharibənin nəticəsi erməni hərbçilərinin şüurundadır. Bu baxımdan, Ermənistan nə qədər istəyir sərhəddə qoşun yığsın. Onlar yaxşı bilir ki, Azərbaycan tərəfi öz sərhədini qorumaq iqtidarındadır. Ermənistan nə edəcəksə, cavabı ağır olacaq. Ötən ilin sentyabr hadisələri də bunu göstərdi.

***Anar Kəlbiyev***

# Rektorlara bəd xəbər

## Bir sıra universitetlərdə yoxlamalar başlayacaq

***Azərbaycanın bir sıra ali məktəblərində yoxlamalara start veriləcək. Hesablama Palatası tərəfindən aparılacaq yoxlamalar kənar dövlət maliyyə nəzarətini nəzərdə tutacaq.***

Bu barədə məlumat verən mənbənin sözlərinə görə, ölkənin əksər ali təhsil müəssisələrinin bəzilərində son illər ümumiyyətlə bu cür yoxlama aparılmayıb. İki il öncə isə Hesablama Palatası universitetlərdə 2020-ci ilə dair kənar dövlət maliyyə nəzarəti barədə yekun nəticəni açıqlayıb.

""Azərbaycan Respublikası Hesablama Palatasının 2020-ci ildə fəaliyyəti haqqında" hesabat sənədinə əsasən, yoxlama aparılan ali məktəblər arasında ən çox nöqsan Azərbaycan Tibb Universitetində ( 21 nöqsan) qeydə alınmışdı. Sənəddə bildirilirdi ki, sonrakı yerdə Bakı Dövlət Universiteti (11 nöqsan) və Azərbaycan Dövlət İqtisad Universiteti (8 nöqsan) qərarlaşıb. Ondan əvvəl isə Hesablama Palatasının 2018-ci il üzrə həyata keçirdiyi nəzarət tədbirlər nəticəsində ən çox nöqsan aşkar etdiyi ali təhsil müəssisələri Azərbaycan Tibb Universiteti (ATU), Bədən Tərbiyəsi və İdman Akademiyası (BTİA) və Bakı Slavyan Universiteti (BSU) olmuşdu.Bu təhsil ocaqları 2018-ci ilə büdcə qanunvericiliyini müvafiq olaraq 7,6 və 5 dəfə pozmuşdular" deyən mənbəmizin məlumatına görə, son vaxtlar bir sıra ali təhsil ocaqlarında ciddi maliyyə pozuntularına yol verildiyinə dair məlumatlar və iddialar intensivləşib.

Xatırladaq ki, bu günlərdə Hesablama Palatası Naxçıvan Dövlət Universitetində nöqsanlar aşkarlamışdı. Palatanın cari ilin İş planına əsasən aparılmış uyğunluq auditi 2021-2022-ci illəri əhatə etmiş və yoxlamalar nəticəsində korrupsiya halları üzə çıxmışdı. Məsələn, məlum olmuşdu ki, universitetdə ümumilikdə 5 ədəd doldurulmuş diplom qeydə alınmayıb, həmçinin 1997-2020-ci illəri və müxtəlif təhsil səviyyələrini əhatə edən doldurulmadan 185 ədəd diplom saxlanılıb. Ümumilikdə təhsilin müxtəlif pillələrində ödənişli təhsil üzrə haqların uçota alınması, hesabatlılığın təmin edilməsi və bu haqların yığılması ilə bağlı əhəmiyyətli maliyyə pozuntularına səbəb olan nöqsanlara yol verilib, təhsil haqları üzrə borcların uçotunda ciddi təhriflər müəyyənləşib. Təhsilalanlar üzrə hesabatlılığın təmin edilməsində yol verilmiş nöqsanlar dövlət sifarişi əsasında kadr hazırlığına ayrılmış 297,2 min manat məbləğində təhsil haqqı və təqaüd xərclərinin dövlət büdcəsinə qaytarılmaması ilə nəticələnib, eləcə də aidiyyəti məlumat bazalarının müqayisə edilməməsi, həmçinin təqaüd yerlərinin düzgün müəyyənləşdirilməməsi 94 min manat artıq maliyyələşmə məbləğinin formalaşmasına səbəb olub.

Hesablama Palatasının Kollegiya Qərarına əsasən aşkarlanan hallarla (əvvəlki illərdə podratçılar tərəfindən təhvil verilməyən maddi qiymətlilər üzrə əskikgəlmələr, həmçinin təmir-tikinti işləri, eləcə də xüsusilə əcnəbi tələbələr və ikinci təhsil üzrə təhsil haqqının alınması sahəsində yol verilmiş nöqsanlar) bağlı müvafiq materiallar Baş Prokurorluğa göndərilib.

Qəzetimizə danışan mənbənin fikrincə, yoxlamalar aparılacağı təqdirdə ölkənin bir sıra digər ali məktəblərində də oxşar nöqsanlara yol verildiyi aşkarlanacaq: "Son illərdə ölkənin iki nüfuzlu universitetində - BDU-da və Azərbaycan Dillər Universitetində aparılmış yoxlamaların nəticələri geniş rezonans doğurmuşdu. Həmin ali məktəblərdə adıçəkilən təhsil ocaqlarının məsul şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə hallarına, ciddi maliyyə pozuntularına, çatışmazlıqlara, habelə saxtakarlıq və mənimsəmə hallarına yol verilməklə dövlətə külli miqdarda zərər vurulduğu faktları qeydə alınmışdı. Bundan sonra oxşar yoxlamaların digər ali məktəblərdə də aparılacağı gözlənilirdi. Lakin həmin gözləntilər özünü doğrultmadı. Ara-sıra bəzi universitetlərdə təftişlər həyata keçirilsə də, proses dövlət ali məktəblərinin fəaliyyətində xüsusilə maliyyə şəffaflığı baxımından ciddi nəticələrə gətirib çıxarmadı. Bu isə bəzi rektorlarda arxayınlıq yaratdı. Halbuki, Naxçıvan Dövlət Universitetində aşkarlanan ciddi nöqsanlar bir daha onu göstərir ki, dövlət universitetlərində kənar dövlət maliyyə nəzarətinin təmin olunması kifayət qədər aktual məsələdir".



Onu da deyək ki, bu həftə ölkə başçısı iki ali təhsil müəssisəsinin rektorunu vəzifədən kənarlaşdırıb. Belə ki, Prezidentin sərəncamına əsasən, Havar Əmir oğlu Məmmədov Bakı Mühəndislik Universitetinin rektoru vəzifəsindən azad edilib. Dövlət başçısının digər Sərəncamı ilə Yaqub Maksim oğlu Piriyev Bakı Mühəndislik Universitetinin rektoru təyin olunub.

Elxan Bahadur oğlu Hüseynov isə Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilib. Onun yerinə Rüfət Eyvaz oğlu Əzizov təyinat alıb.

***Toğrul Əliyev***

# Yanvarda pensiyalar nə qədər artırılacaq? - Açıqlama



***"Bu ilin ilk 7 ayında Azərbaycanda orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,3 faiz artaraq 925,3 manat olub".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, orta aylıq əmək haqqındakı artım faizi növbəti yanvar ayında pensiyaların indeksasiyası zamanı istifadə edilən göstəricidir:

"Yəni, bu il ərzində orta maaş nə qədər artacaqsa, pensiyalarda artım da o qədər olacaq. Hazırda indeksləşmədə iki göstəricidən (orta aylıq əmək haqqının artım səviyyəsi və inflyasiya göstəricisi) istifadə edilir. Pensiya məbləği əvvəlki ildə orta aylıq nominal əmək haqqında artım tempinə, pensiya kapitalı isə inflyasiya göstəricisinə indeksasiya olunur. Bu ildən tətbiq olunan vahid indeksasiya sistemi bütün əmək pensiyası alan vətəndaşlarımızın pensiya məbləğlərinin hər il yanvar ayında əvvəlki il üzrə orta aylıq əmək haqqındakı artım faizinə uyğun artırılmasını nəzərdə tutur".

Deputat qeyd edib ki, bu ilin 7 ayındakı tendensiya saxlanacağı halda gələn ilin yanvar ayında pensiyalar təxminən 11 faizə indeksasiya olunacaq:

"Təbii ki, daha dəqiq rəqəm 2024-cü ilin yanvar ayında elan olunacaq. Bütün hallarda, orta maaşda artım tempi yüksəldikcə, pensiyalarda daha çox artımlar müşahidə olunacaq. Bu baxımdan, orta aylıq əmək haqqındakı artım faizi yalnız ölkə iqtisadiyyatında muzdla çalışan işçilər üçün deyil, həmçinin pensiyaçılar üçün də əhəmiyyətlidir".

***Seymur Əli***

# "Zibilliyə atılan qidalar aclıqdan ölənlərin 15 mislini doydurar" - Nazir



***"Dünyada qlobal təhlükələr və risklər - su çatışmazlığı, quraqlıq, istiləşmə, səhralaşma, sənayeləşmə, beynəlxalq konfliktlər, pandemiyalar, epidemiyalar dövründə ərzaq və qida təhlükəsizliyi bəşəriyyət üçün prioritet sahələrdir. Ərzaq təhlükəsizliyi birbaşa kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlıdır. Bu səbəbdən ərzaq təhlükəsizliyi dövlətin təhlükəsizliyinin təməl şərtlərindəndir. Lakin müasir dünyamızda ərzaq və qida çatışmazlığı beynəlxalq təşkilatların hesabatlarında qeyd edilməklə, bu sahələr daha diqqətli və həssas yanaşmanı tələb edir".***

"Unikal" xəbər verir ki, bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib. Nazir bildirib ki, Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, 2022-ci ildə dünyada 735 milyon insan aclıqdan əziyyət çəkib: "5 yaşınadək 148 milyon uşaq qida çatışmazlığı səbəbindən inkişafdan geri qalıb. 2018-ci ildə isə hər gün dünyada 18 min uşaq aclıqdan və doyunca yeməməkdən vəfat edib".

M.Məmmədov qeyd edib ki, Dünya Bankının hesabatlarına görə, inkişaf etmiş ölkələrdə zibilliyə atılan qidalar dünyada aclıqdan ölən insanların 15 mislini doyduracaq səviyyədədir:

"Əgər bu cür qeyri-bərabər paylanmalar olmasaydı, dünyada insanların aclıq problemi olmaya bilərdi. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu cür statistikalar da mövcuddur. Hər bir taxıl dəninin, hər kiloqram çörəyin və ərzağın qiymətli olduğu, zəhmətlər və kapital qoyuluşu hesabına başa gəldiyini nəzərə alaraq, təhlükəli qida istehsal edən sahibkarın son nəticədə hər birimizə zərər vurduğunu görərik. Çıxdaş edilərək məhv edilən bu cür ərzaqlar dövlətin resurslarının israfı deməkdir. Bu səbəbdən Alimentarius Kodeksinin və ölkələrin qida təhlükəsizliyi sahəsində qəbul etdiyi qanunvericilik aktlarının ciddi tətbiqi həm də ölkələrin ərzaq təhlükəsizliyində böyük rol oynayır".



## Təhsil müəssisələrindəki bufetlərdə yoxlamalar başlayır - RƏSMİ

***"Elm və Təhsil Nazirliyinin rəhbərliyi ilə təhsil müəssisələrində bufetlərin fəaliyyətinə dair məsələni ətraflı müzakirə etmişik".***

"Unikal" xəbər verir ki, bunu Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, bütün təhsil müəssisələrində xüsusi qida nəzarətinə başlanılacaq:

"Bu ildən etibarən Qida Təhlükəsizliyi İnstitutu naziriliyin tabeliyindəki bütün müəssisələrdə xüsusi proqram və təlimlər həyata keçirəcək. Keyfiyyətə nəzarət məsələlərinə, həmçinin məhsulların daşınması, çatdırılması, satılmasına xüsusi nəzarət prinsipləri tətbiq olunacaq. Ümid edirəm ki, gələcəkdə neqativ hallar ortadan qaldırılacaq".

## Qərbi azərbaycanlıların qayıtmasını heç kim əngəlləyə bilməz

***Ermənistanın baş naziri Nikol Paşinyanın "POLITICO Europe" nəşrinə müsahibəsi və son günlər verdiyi digər açıqlamalar bir daha onun gündə bir neçə dəfə bir-birini inkar edən fikirlər səsləndirdiyini, ardıcıl siyasət yeritmədiyini, Azərbaycana qarşı ərazi iddiasından əl çəkmədiyini, bunu indi başqa ad altında gizlətməyə çalışdığını, bölgədə vəziyyəti qəsdən kəskinləşdirməkdə maraqlı olmasını nümayiş etdirir.***

Bu barədə "Unikal"a Qərbi Azərbaycan İcmasından bildirilib. Qeyd edildiyinə görə, N.Paşinyanın fikirləri onu göstərir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü hətta sözdə belə tanımasını şərtləndirir. Ermənistan yenə də hansısa "beynəlxalq mexanizm"in yaradılması xülyasındadır. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə bağlı siyasəti, onlarla dialoq Azərbaycanın sırf daxili işidir və bu məsələlərin Ermənistana heç bir aidiyyatı yoxdur. Ermənistan Azərbaycanın daxili işlərinə kobud müdaxilədən əl çəkməlidir. Bu, qeyri-ciddi və təhlükəli siyasətdir.

Baş nazirin "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdı, çünki müttəfiqlərimiz susdu" fikri Ermənistanın əsl niyyətini, riyakarlığını göstərir. Belə çıxır ki, Ermənistan kənardan dəstək alsaydı, onda Azərbaycanın ərazi bütövlüyünü tanımayacaqdı. Bunu o dövlət deyir ki, özünə gələndə hər fürsətdə suverenliyini, ərazi bütövlüyünü, qırmızı xəttlərini qabardır, "timsah göz yaşları" axıdır, Azərbaycanın suverenliyinə qarşı beynəlxalq müstəvidə çirkin böhtan kampaniyası aparır.

Görünən odur ki, N.Paşinyan hələ də 30 il ərzində Ermənistanda təşəkkül tapmış irqçi, azərbaycanofob ideologiyanın təsiri altındadır. Həmin ideologiyanın əsas sütünlarından biri "Qarabağ məsələsi bitib, çünki erməni xalqı Qarabağ məsələsini döyüş meydanında həll edib" düşüncəsi idi. Erməni xalqının Qarabağ məsələsini necə "həll etdiyini" Azərbaycan xalqı 2020-ci ildə Vətən müharibəsi zamanı döyüş meydanında göstərdi.

Qərbi Azərbaycan İcmasının dialoq təklifini qəbul etməyən, azərbaycanlıların qayıdış hüququnu inkar edən N.Paşinyan yəqin ki "Qərbi azərbaycanlılarla bağlı məsələni biz həll etmişik" düşüncəsindədir. Bu, yanlış yanaşmadır. Qərbi azərbaycanlılar dinc yolla öz dədə-baba yurdlarına qayıtmaq əzmindədirlər və heç kim bunu əngəlləyə bilməz.

# Cahangir Əsgərovun biznesi təhlükədə

## AZAL-ın sabiq "şef"i "vurulduqdan" sonra ona məxsus nəhəng gəlir qaynaqlarının taleyi müzakirə mövzusuna çevrilib



***Məlum olduğu kimi, "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin prezidenti Cahangir Əsgərov iki həftə öncə 27 ildir tutduğu vəzifədən azad edildi. Ötən sayımızda bu barədə bəhs edərkən vurğulamışdıq ki, Əsgərovun adıçəkilən QSC-yə rəhbərliyi zamanı onun ailə biznesi ildırım sürətilə çiçəklənib. Cahangir müəllimin ölkənin faktiki olaraq əsas oliqarxlarından birinə çevrilib, qurduğu "biznes imperiyası" ölkə sərhədlərini də aşıb. Əvəzində isə AZAL ilbəil zərərlə işləyən, borc bataqlığında çırpınan dövlət şirkəti statusu "qazanıb".***

Lakin son gələn xəbərlər Cahangir müəllimin öz vəzifəsi ilə vidalaşmasının ardından biznesinin də təhlükə altında olduğunu söyləməyə əsas verir. Belə ki, 1994-cü ildə "AZAL Səhmdar Kommersiya Bankı" kimi fəaliyyətə başlayan, daha sonra adını 2 dəfə dəyişən - əvvəlcə "Bank Silk Way" ASC, hazırda isə "Premium Bank" ASC adlanan və Əsgərovun "biznes imperiyası"nın əsas sütünlarından birini təşkil edən bankla bağlı ilginc məlumat yayılıb. Sabiq AZAL "şefi"nin "vurulmasından" qısa müddət sonra dövriyyəyə buraxılan həmin məlumatlarda bildirilib ki, sözügedən ASC-nin problemli kreditləri digər özəl banklarla müqayisədə kifayət qədər yüksəkdir.Bir az da dəqiqləşdirsək, ekonominfo.azın xəbərinə görə, bu ilin ikinci rübünün yekununda "Premium Bank"ın problemli kreditlərinin həcmi 135,2 milyon manat olub.Vaxtında geri qaytarılmayan kreditlərin həcmi isə ümumi kreditlərin 28,7%-ni təşkil edib.

Müqayisə üçün problemli kreditlərin Azərbaycanda bank sektoru üzrə orta göstəricisi 6,3% olub. Rəqəmlərdən də göründüyü kimi "Premium Bank" ASC-nin problemli kreditləri ölkə üzrə qeydə alınan orta göstəricidən dəfələrlə yüksəkdir.

Bütün bunlardan sonra Cahangir Əsgərovun ailə biznesinə daxil olan bankın bağlanma ehtimalı gündəmə gətirilib.

Məlumat üçün bildirək ki, "Premium Bank"ın əsas səhmdarı birneçə gün əvvəl AZAL-ın prezidenti vəzifəsindən azad olunan Cahangir Əsgərovun həyat yoldaşı Zərifə Həmzəyevadır.

Hazırda bank səhmlərinin 84,5%-i məhz Zərifə Həmzəyevaya məxsusdur.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda ayrı-ayrı iri vəzifə sahiblərinin yüksək postlar tutarkən özlərinə geniş biznes şəbəkələri qurması adi haldır. Lakin həmin oliqarxlaşmış məmurların öz kreslolarını itirdikdən sonra onların illərcə qurduqları "biznes imperiyalarının" zəifləməsi, hətta tam süquta uğraması da kimsə tərəfindən şübhə ilə qarşılanmır.

Bu, səbəbsiz deyil. Əksər vəzifəli şəxslər tutduqları postların onlara yaratdığı imtiyazlardan, təsir imkanlarından faydalanaraq ailə üzvlərinin, yaxınlarının adına şirkətlər açırlar. Həmin şirkətlər müxtəlif qaranlıq yollarla qısa vaxtda güclənərək bazarda monopolist oyunçulara çevrilirlər. Ancaq elə ki, onların arxasındakı "güclü əl", himayədar vəzifədən məhrum olur, bununla da sözügedən şirkətlərin, ümumilikdə, biznes şəbəkəsinin də qürubu başlanır.

Qısası, indiyə qədərki təcrübəni təhlil etdikdə AZAL-ın sabiq "şef"i öz postunu itirdikdən sonra onun nəhəng "biznes imperiyasının" da böyük sürətlə zəifləməsi qaçılmaz görünür.

Üstəlik, görünən odur ki, Cahangir Əsgərov üçün haqqında danışdığımız proses "Premium Bank"dan start götürüb.

Onu da deyək ki, AZAL-ın sabiq "şefi"nin əksər gəlir qaynaqları ölkə xaricindədir. Bu onun vəzifədən gedəcəyi təqdirdə öz biznesini təminat almaq cəhdi kimi qiymətləndirilir.

Əsgərovun Azərbaycan hüdudlarından kənardakı obyektlərinin bir qismi bunlardır: Batumidə 31 milyon dollar dəyərində "Grand Gloria" hoteli; Tiflisdə dəyəri milyonlarla dollara bərabər olan "Tiflis Palace" hoteli; yenə Gürcüstan paytaxtında "Veranda" restoranı; Londonda - "Soroka Limited" şirkəti, 18.4 milyon dollarlıq aktivləri olan "Gazella İnternational Limited" şirkəti, 41 milyon dollarlıq aktivlərə malik "Gazella Art House Limited" şirkəti, Türkiyədə "D.M.Z.D.Tekstiul Dış Ticaret Limited" şirkəti; italyan kürəkəni İqnazio Koraçinin direktoru olduğu "Airport Servicinq Kompany Limited" şirkəti; həmin kürəkəninin adına olan "ASC Handliinght İtalia Limited" şirkəti"; Almaniyada "Hahn Cargo Services" törəmə şirkəti (illik dövriyyəsi 4.83 million dollar); "SW İtalia SRL" şirkəti (illik dövriyyəsi 7 milyon dollar); ingilis kürəkəni Robert Nortonun direktoru olduğu "Verisart Limited" şirkəti və s.

AZAL-ın sabiq rəhbərinin Azərbaycanda isə Naftalanda "Garabag Resort and Spa" adlı 5 ulduzlu otel və müalicə mərkəzinin, İsmayıllı rayonunda, Bədo Bulağının yaxınlığında 8 hektarlıq ərazidə "Vəhsudan düşərgəsi"nin, Nabranda 30 ha sahədə villanın, Qala qəsəbəsində 265 ha badam bağının, 12.500 kvadrat metrdən artıq sahədə yerləşən və həyat yoldaşı Zərifə Hacıyeva tərəfindən idarə edilən "Gazelli" kosmetika fabrikinin sahibi olduğu deyilir.

Lakin C.Əsgərov indiyədək şəxsi varidatı və biznesi barədə bütün bu məlumatları yalnız susqunluqla qarşılayıb, təsdiq etməsə də, təkzib də eləməyib.

İndi isə ictimaiyyət arasında dolaşan başlıca suallardan biri budur: AZAL-ın sabiq "şefi" vəzifəsini itirdikdən sonra ona aid edilən nəhəng sərvətin və biznesin aqibəti necə olacaq?

Üstəlik, uzun illərdən bəridir ölkə mediasında həmin sərvətin və biznesin kökündə korrupsiya pullarının dayandığı ehtimal edilir.

***Sənan Mirzə***

# Monopolistlərin "payızı" yaxınlaşır

## İnhisarçılığa son qoyacağı gözlənilən Rəqabət Məcəlləsinin layihəsi Milli Məclisə göndərildi - Bundan sonra nə baş verəcək?

***Azərbaycanda uzun illərdir gözlənilən bir addım atılıb: Rəqabət Məcəlləsinin layihəsi Prezident İlham Əliyev tərəfindən Milli Məclisə göndərilib və parlamentin İnternet saytında yerləşdirilib. Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, Rəqabət Məcəlləsinin layihəsi 12 fəsil 83 maddədən ibarətdir.***

Məcəllənin qəbulu ilə “Antiinhisar fəaliyyəti haqqında”, “Haqsız rəqabət haqqında”, “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasının Qanunları və digər hüquqi aktlar yeni, vahid hüquqi sənəddə birləşdirilmiş olacaq. Məlumatda qeyd olunur ki, məcəllə hazırlanarkən müxtəlif dövlət orqanları, habelə biznes assosiasiyaları ilə geniş müzakirələr aparılıb, onların rəy və təklifləri nəzərə alınıb. Layihə Türkiyə, ABŞ, Avropa İttifaqı, Almaniya, Avstriya, Latviya, Litva, Macarıstan və Çexiya qanunvericilikləri başda olmaqla, qabaqcıl beynəlxalq təcrübə, həmçinin yerli bazarın xüsusiyyətləri nəzərə alınmaqla ərsəyə gətirilib.

Qeyd edək ki, Azərbaycanda Rəqabət Məcəlləsi ölkə müstəqillik əldə etdikdən sonra ən çox gözlənilən sənəddir. 2006-cı ildə Milli Məclisdə məcəllə layihəsi hazırlanaraq birinci və ikinci oxunuşda müzakirə olunub, lakin ondan sonra bir daha müzakirəyə çıxarılmayıb. Amma dəfələrlə məcəllənin hazırlanmasını nəzərdə tutan sərəncam və tapşırıqlar verilib. Hazırda sahibkarlıq sahəsində rəqabət mühiti 1995-ci il tarixli “Haqsız Rəqabət haqqında” və 1993-cü ildə qəbul olunan “Antiinhisar fəaliyyəti haqqında” qanunlarla tənzimlənir.

Rəqabət Məcəlləsi layihəsinin uzun müddətdir, daha dəqiq desək, 17 ildən bəridir qəbul edilməməsi müəyyən oliqarxların monopolist maraqları ilə izah olunurdu. Hətta Milli Məclisin deputatı Vahid Əhmədov açıqlamalarında bildirirdi ki, sözügedən sənədin qəbul edilməsinə mane olan monopolistlər hələ də var: ”İstəmirlər ki, belə bir məcəllə qəbul edilsin. İndiki zamanda rəqabət məcəlləsinin qəbul edilməsi bu kimi halların qarşısını almaq, azad rəqabəti təmin etmək üçün olduqca əhəmiyyətlidir...”

V.Əhmədov bir müsahibəsində isə açıq şəkildə demişdi ki, Azərbaycanda bazara nəzarət edən müəyyən qruplar var. Sitat: ”Onlar bazarı əldən vermək istəmirlər. Ona görə də bu Məcəllənin qəbul edilməsində maraqlı deyillər. Çünki Rəqabət Məcəlləsi qəbul edildikdən sonra bazarda rəqabət olacaq. Hər bir sahibkar öz malını satanda problemlə üzləşməyəcək. Ona görə də Rəqabət Məcəlləsinin qəbul olunmasına mane olanlar var...”

Başqa bir millət vəkili Əli Məsimli isə bildirmişdi ki, bazar iqtisadiyyatı inhisarçılıqla rəqabətin sintezindən ibarət olsa da, dünyada elə bir ölkə yoxdur, orada rəqabət üçün şərait yaratmadan sözün həqiqi mənasında yüksək səviyyədə hərtərəfli inkişaf edə bilsin. Sitat: ”Çünki inhisarçılar öz mövqelərindən sui istifadə edərək, qanunvericiliklə yolverilməz vasitə və üsullardan istifadə etməklə, yüksək mənfəət götürmək məqsədi ilə ayrı-ayrı fəaliyyət sahələrini, məhsul növlərinin idxal-ixracını və bazarların xeyli hissəsini nəzarətə alıb azad rəqabəti boğmaqla inkişafımızın tormozlayıcı amilinə çevriliblər”.

Ə.Məsimli başqa bir açıqlamasında isə vurğulamışdı ki, sözügedən layihənin qəbulunun gecikməsi cəmiyyətdə onun hansısa monopolist çevrələr tərəfindən əngəlləndiyi barədə söz-söhbətləri gündəmə gətirir.



Lakin hazırkı mərhələdə layihənin Milli Məclis tərəfindən tezliklə qəbul olunacağına dərin inam var. Bu səbəbsiz deyil: sənəd ölkə başçısı tərəfindən parlamentə göndərilib və ölkədə monopolizmə son qoyulması üçün ciddi siyasi iradə mövcuddur. Nəticə etibarilə Azərbaycan iqtisadiyyatında inhisarçılığın tam ”sındırılması” artıq çox uzaqda deyil...

Əksər iqtisadçıların fikrincə, bu sənədin qəbulu ölkə iqtisadiyyatının sürətli inkişafına mane olan bir sıra ciddi əngəllərin aradan qaldırılmasını şərtləndirəcək. Daha da konkretləşdirsək, iqtisadiyyatda rəqabətin gücləndirilməsinə dəstək olacaq; inhisarçıların süni qiymət qoyması, bazarı boğması, haqsız rəqabət şərtləri formalaşdırmasının qarşısını alacaq; ”kölgə iqtisadiyyatının” əl-qolunu xeyli dərəcədə bağlayacaq və s.

Bir sözlə, Rəqabət Məcəlləsinin yaxın vaxtlarda qəbulu belə deməyə əsas verir ki, qarşıdan yalnız payız fəsli gəlmir, bizi eyni zamanda uzun illərdir ölkə iqtisadiyyatının tormozlayıcı qüvvəsinə çevrilən monopolistlərin ”payızı” gözləyir. İnhisarçıların qaçılmaza çevrilən ”yarpaq tökümü” isə ölkədə yeni rəqabət mühitinin, bu da öz növbəsində süni qiymət artımından tutmuş iqtisadiyyatın “ağardılması”, “gizli iqtisadiyyat”ın minimallaşdırılmasına, yerli istehsalın artmasından iş yerlərinin açılmasınadək cəmiyyəti çoxdan naraht edən xeyli problemin kökündən həllinə böyük ümidlər yaradır...

***Sənan Mirzə***

# Parlament bu protokolu təsdiqləyəcək



***Milli Məclis “Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında” Konvensiyada dəyişiklik edilməsinə dair Protokolu təsdiqləyəcək.***

Bu barədə Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirəyə çıxarılan qanunda qeyd olunub.

Qanun layihəsinə görə, Azərbaycan ”Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında” Konvensiyada dəyişiklik edilməsinə dair Protokol”a qoşulacaq.

# İranın Baş prokuroru Bakıya gəldi, Kamran Əliyevlə görüşdü



***Bakıda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasında iştirak etmək üçün Baş prokuror Kamran Əliyevin dəvətilə İran İslam Respublikasının Baş prokuroru Mohammad Kazem Movahedi-Azad ölkəmizə işgüzar səfərə gəlib.***

”Unikal” xəbər verir ki, bu gün Baş Prokurorluqda keçirilmiş görüş zamanı Azərbaycan və İran prokurorluqları arasında işgüzar əlaqələrin inkişaf etdirilməsinə yönələn tədbirlərin əhəmiyyətindən bəhs edən Azərbaycan Respublikasının Baş prokuroru ikitərəfli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirməklə, Azərbaycanın Tehrandakı səfirliyinə qarşı terror aktı törətmiş şəxsin mühakimə edilməsi ilə bağlı İran prokurorluq orqanlarının açıqlamasını bu istiqamətdə mühüm addım kimi qiymətləndirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mohammad Kazem Movahedi-Azad hüquqi əməkdaşlıq sahəsində təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini, həmçinin Baş prokuror kimi ilk xarici səfərini Azərbaycana etməsindən məmnun olduğunu, səfirliyimizə hücumla bağlı cinayət işinin nəzarətində olduğunu, həmin işin məhkəməyə göndərildiyini və iş üzrə ədalətli qərar qəbul ediləcəyini bildirib.

Görüşdə iki ölkə arasında hüquqi əməkdaşlıq, o cümlədən ekstradisiya, məhkumların verilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsi, ekoloji hüquqpozmalar və digər maraq kəsb edən mövzular müzakirə edilərək bu sahədə məlumat mübadiləsinin vacibliyi vurğulanıb, faydalı fikir mübadiləsi aparılıb, eləcə də beynəlxalq platformalarda, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın davam etdiriləcəyi bildirilib. Həmçinin İran İslam Respublikasında məhkum edilən Azərbaycan Respublikasının vətəndaşı Fərid Səfərlinin barəsində cinayət işi müzakirə olunub.

Görüşdə ölkəmizin İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadə və İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi iştirak edib.

# AZAL-da yeni təyinat

***“Azərbaycan Hava Yolları” QSC-də (AZAL) yeni təyinat olub.***

“Unikal” xəbər verir ki, QSC-nin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya İdarəsinin rəisi vəzifəsi Aysel Süleymanovaya tapşırılıb. Təyinatı AZAL-dan saytımıza təsdiqləyiblər.

Qeyd edək ki, A. Süleymanova bundan əvvəl “PwC Azerbaijan” və “AmCham Azerbaijan”da çalışıb.

# Nazir dövlət büdcəsinə daxilolmaların həcmini açıqladı

***Bu ilin yanvar-avqust aylarında dövlət büdcəsinə daxilolmaların həcmi açıqlanıb.***

”Unikal” xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov ”X” sosial şəbəkəsindəki hesabında məlumat paylaşıb.

”2023-cü ilin yanvar-avqust aylarında Dövlət Vergi Xidməti xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 23,4% artaraq, 12 milyard 80 milyon 400 min manat təşkil edib. Bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 20,5% artaraq, 6 milyard 865 milyon 600 min manat olub”, - nazir qeyd edib.



# Kəmaləddin Heydərovdan yeni təyinat

***FHN-nin Gəncə Regional Mərkəzinə yeni rəis müavini təyin edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı nazir Kamaləddin Heydərov əmr imzalayıb. Nazirin əmrinə əsasən, sözügedən vəzifəyə mayor Ramin Akif oğlu Orucov təyinat alıb.

Qeyd edək ki,Ramin Orucov bu təyinata qədər Gəncə Regional Mərkəzinin Xüsusi xilasetmə hissəsinin rəisi vəzifəsində çalışıb.

Xatırladaq ki, Gəncə Regional Mərkəzinin rəis müavinləri polkovnik Məmməd Tağıyev və Elçin Cəfərov yaş həddilə əlaqədar təqaüdə göndərilib.

*Tural Əhmədov*

# Bu, xəstəliklərin yayılmasının qarşısını alır - Səhiyyə naziri

***Qida təhlükəsizliyi əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır. Qidaların keyfiyyətli və təhlükəsiz olması qida ilə əlaqəli xəstəlik hallarının yayılmasının qarşısını almış olur, səhiyyə sistemini mümkün təhdidlərdən qoruyur.***

"Unikal" xəbər verir ki, bunu "Avropa və Mərkəzi Asiyada Qida standartlarının təkmilləşdirilməsi və Kodeksin fəaliyyətində iştirakın genişləndirilməsi" mövzusunda Bakıda keçirilən regional tədbirdə səhiyyə naziri Teymur Musayev deyib.

O qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" arasında vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi əsas məqsədlərdən biri olaraq qarşıya qoyulub:

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında uşaqların sağlam həyat tərzi və sağlam qidalanmanın təşviqi yuxarıda qeyd olunan məqsədə çatmaq üçün əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilib.

Həssas əhali qrupları arasında qida təhlükəsizliyi barədə məlumatlılıq səviyyəsinin artırılması üçün maarifləndirmə və təşviqat tədbirlərinin keçirilməsi zəruri hesab olunur".

# Əmək müqavilələrinin sayı açıqlandı

***2019-cu ildən indiyədək bağlanmış əmək müqavilələrinin sayı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında məlumat paylaşıb.

"2019-cu ildən indiyədək işçilərlə işəgötürənlər arasında əmək münasibətlərinin rəsmiləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində bağlanmış əmək müqavilələrinin sayı 350.888, qeyri-neft sektorunun özəl bölməsində isə 331.018 artıb.

Bu müddət ərzində qeyri-neft sektorunun özəl bölməsinin ümumi əmək müqavilələrində payı 38,5%-dən 49,7%-ə çatıb.

# Yenə məmur övladları, yenə bahalı maşınlar...

## Həftənin sualı: Azərbaycanda fantastik qiymətə satılan avtomobillərin alıcıları kimlərdir?

***Son zamanlar yerli KİV-də vaxtilə oxumağa adət etdiyimiz, az qala, hər gün yeni xəbər oxuduğumuz bir mövzuda məlumatlar yenidən intensivləşib. Söhbət müəyyən vəzifəli şəxslərin ailə üzvlərinin, övladlarının bahalı avtomobillər aldığına dair yayılan informasiyalardan, fotoşəkillərdən, bu barədə bir-birini əvəzləyən iddialardan gedir. Məsələn, ölkənin iri şəhərlərindən birinin icra başçısının oğlunun bahalı maşın kolleksiyası yaratdığı, hansısa rayonun icra başçısının müavininin oğlunun isə yüksək qiymətə lüks avtomobil aldığı deyilir.***



Ya da bir icra başçısının oğlunun təxminən yarım milyon manatlıq avtomobili üçün bir neçə on min manatından keçib "zerkalnı" nömrə aldığı iddia edilir. Belə nümunələrin sayını artırmaq olar. Üstəlik, bu cür xəbərlərdə adları çəkilən məmurların həmin iddialara reaksiya verməməsi də əlavə suallar doğurur. Aydın olmur ki, həmin məmurlar mətbuatdakı xəbərləri ciddiyə almırlar, yoxsa "susmaq razılıq əlamətidir" prinsipindən çıxış edərək belə iddiaları, bir növ, təsdiqləmiş olurlar? Hər halda görünən odur ki, bəzi məmur övladları ölkə rəhbərliyinin xəbərdarlıqlarından və cəmiyyətin sərt reaksiyasından sonra xeyli səngiyən bahalı maşın sevdasına yenidən "yoluxmağa" başlayıblar. Görünür, onlar dəyəri yüz minlərlə manata bərabər olan və məmur maaşı ilə alınması mümkünsüz görünən "Bentley", "Land Rover", "Land Kruise", "Mercedes S class", "Mercedes Galendevagen" kimi avtomobillərin sükanı arxasında əyləşmədən həyatın ləzzətini çıxarmaqda çətinlik çəkirlər...

Ötən il ölkə mediası yazırdı ki, ölkəmizdə satılan ən bahalı avtomobilin qiyməti yarım milyon dollara yaxındır. Belə ki, Azərbaycanda ən bahalı avtomobil "Rolls-Royce" markasına aiddir - Bakı şəhərində satışa çıxarılan "Rolls-Royce Cullinan" modelinin (6.7 L, 2019 il) qiyməti 480 min ABŞ dollarıdır (816 min AZN).

"Rolls-Royce" ailəsinə aid "Wraith" modeli isə (6.5 L, 2016 il) 304 min ABŞ dollarına (516 800 manat) satılır.

Üçüncü ən bahalı avtomobil olaraq "Lamborghini Huracan" modeli göstərilirdi. Bu modelin (5.2 L, 2017 il) qiyməti 265 000 ABŞ dollarıdır (450 500 manat).

Digər ən bahalı avtomobil isə "Mercedes" markasına daxil idi. Bildirilirdi ki, Bakıda "Mercedes-Maybach S 560" modeli (4.0 L, 2020 il) 258 min ABŞ dollarına (438 min manat) satılır.Və nəhayət: Bakıda beşinci ən bahalı avtomobil olaraq "Bentley" ailəsinə aid "Bentley Flying Spur" markalı avtomobil (6.0 L, 2020 il) qeyd olunurdu. O, 350 min manata satışa çıxarılıbmış.

Əlbəttə, ölkədə kifayət qədər imkanlı iş adamı, müğənni və s. var ki, onların maddi imkanı həmin avtomobilləri almağa kifayət edir. Hərçənd, belədə də sual yaranır ki, belələri milyonluq villalarda yaşadığı, hətta bir avtomobilə bir neçə yüz min manatı rahatlıqla xərcləyə bildiyi halda nə üçün Azərbaycanda bircə nəfər də rəsmi milyonçu yoxdur?!

Digər tərəfdən isə son vaxtlar məmur övladlarının bahalı avtomobillər alması ilə bağlı artan iddialar, bir çox hallarda fotoşəkillərin və videogörüntülərin müşayiətilə yayılan xəbərlər deməyə əsas verir ki, qiyməti göz qamaşdıran belə lüks "inomarka"ların alıcıları yalnız iş adamları, sahibkarlar, məşhur müğənnilər, daha dəqiq söyləsək, şoubiznes ulduzları deyil. Həmin alıcılar arasında bəzi vəzifə sahiblərinin özləri, yaxınları, ailə üzvləri var.

Qeyd edək ki, Azərbaycan məmurlarının bahalı avtomobillərə aludəçiliyi neft gəlirlərinin sürətli axını başlayan illərdən yaranmışdı. Sonradan bu aludəçilik tamam əndazədən çıxdı, iş o yerə çatdı ki, bir sıra məmur övladları valideynlərinin korrupsiya pulları hesabına onlara aldıqları avtomobillərlə yol hərəkəti qaydalarını açıq-aşkar pozmağa, ağır qəzalar törətməyə, insanların ölümünə bais olmağa başladılar. Məsələyə ölkə rəhbərliyi müdaxilə etdi və qudurğan məmur övladlarına görə ataların ən ağır şəkildə cəzalandırılacaqları bildirildi. Hətta cəzalandırılanlar da oldu!

Beləcə, "papanın gül balalarının" bahalı avtomobil sevdası da, bu avtomobillərdə özbaşınalıq həvəsi də səngidi.

Lakin deyəsən, bəziləri keçmişin acı dərslərindən nəticə çıxarmaq fikrində deyillər və öz qarajlarını, ümumiyyətlə, öz həyatlarını belə avtomobillər olmadan, cəmiyyətə nümayiş etdirmədən yaşaya bilmirlər. Ümid edək ki, bəhs etdiyimiz mövzuda intensivləşən xəbərlər bir neçə il əvvələdək az qala normal hala çevrilən və ölkə rəhbərliyi tərəfindən qudurğanlıq kimi qiymətləndirilən faktların təkrarlanmasına gətirib çıxarmaz...

*Sənan Mirzə*

# "Ərzaq məhsulları ilə qeyri-ərzaq məhsullarının bir yerdə daşınması qadağandır" - Agentlik sədri

***Qida məhsullarının daşınması və çatdırılması standartlara uyğunlaşdırılmalıdır. Belə ki, məhsullar daşınarkən həm isti, həm də soyuq zəncir prinsipinə əməl olunmalıdır. Ərzaq məhsulları ilə qeyri-ərzaq məhsullarının bir yerdə daşınması qəti qadağandır. Ərzaq məhsullarının "qonşuluq" prinsipinə düzgün əməl olunmalıdır. Daşınma ilə məşğul olan sahibkarlıq strukturları tibbi müayinələrdən keçməlidirlər. Onların istifadə etdiyikləri qida boksları standartlara uyğun olmalıdır.***



"Unikal" xəbər verir ki, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli jurnalistlərə açıqlamasında deyib.

Agentliyin sədri bildirib ki, qida məhsullarının daşınması və çatdırılması qida zəncirinin əsas müzakirə olunan məsələlərindən biridir. Beynəlxalq standartlara uyğun olaraq qida təhlükəsizliyi sistemi tarladan süfrəyə qədər qida zəncirinin bütün mərhələlərini əhatə edir. Dolayısı ilə bu, ilkin istehsal, istehsal, məhsulların qablaşdırılması, daşınması, saxlanılması, çatdırılması, satışıdır. Bunun da ən ümdə mərhələlərindən biri də qida məhsullarının daşınması və çatdırılması xidmətinin həyata keçirilməsidir. Pandemiya dövründə tək Azərbaycanda deyil, dünyada qida məhsullarının daşınması və çatdırılması böyük əhəmiyyət kəsb etdi və geniş vüsət aldı. Azərbaycanda da qida məhsullarının daşınması və çatdırılması şirkətləri formalaşdı. AQTA-nın həmin şirkətlərdən ən vacib tələbi öz fəaliyyətlərini bilavasitə qanunvericiliyin tələblərinə uyğun həyata keçirmələridir.

## 5.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın haqlı mövqeyi dünya ictimaiyyəti tərəfindən qəbul olunur

## Tural İsmayılov: "Azərbaycanın mövqeyi Avropadan Mərkəzi Asiyaya, Cənubi Amerikadan Afrikaya qədər böyük coğrafi areallarda maraqla izlənilir"

***Azərbaycan dövlətlərarası əlaqələrini gücləndirməklə yanaşı, həm də ölkəmizin dünya miqyasında nüfuzunun daha da artırılması istiqamətində daim iş aparır. Azərbaycan artıq dünyada etibarlı tərəfdaş kimi böyük nüfuza sahibdir. Ölkəmiz dünyanın üzləşdiyi qlobal problemlərin həllinə mühüm töhfə verməklə yanaşı beynəlxalq aləmdəki etibarlı tərəfdaş mövqeyini daha da möhkəmləndirib.***

Dövlətimizin başçısı ölkəmizin dünya birliyinə inteqrasiyası istiqamətində səylə çalışır. İlham Əliyevin siyasi uzaqgo?rənliyi sayəsində Azərbaycanın dünyaya inteqrasiyası daha da sürətlənib. Son illər ölkəmizin mötəbər tədbirlərə ev sahibliyi etməsi də dünyada Azərbaycanın qazandığı müsbət imicin və etibarlı tərəfdaş olmasının bariz nümunəsidir. Müstəqillik əldə etdikdən sonra ölkədə dünya iqtisadiyyatına inteqrasiya istiqamətində çox mühüm addımlar atılıb, xarici iqtisadi əlaqələrin coğrafiyası genişlənib. Azərbaycan artıq Cənubi Qafqaz regionunda lider dövlətə çevrilib. Dövlətimizin bu uğurlu siyasəti 1990-cı illərin əvvəllərindən - ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən bu günədək davam edir. Azərbaycanın xarici siyasətində qətiyyətlilik, etibarlılıq, o cümlədən müxtəlif güc mərkəzləri ilə arasında körpü günü-gündən möhkəmlənir. Prezident İlham Əliyev də öz çıxışlarında bildirib ki, Azərbaycan dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq gücümüz də ildən-ilə artır.

"Qonşu dövlətlərin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olubdur və bu görüşlər çox önəmlidir. Çünki qonşularla münasibətlərin qurulması, hesab edirəm ki, hər bir ölkə üçün prioritet olmalıdır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur. Bu əlaqələr keçən il daha da möhkəmləndi"deyə prezident çıxışlarından birində qeyd edib.

Qeyd edək ki, Azərbaycanın 2020 -ci ildə Vətən müharibəsində əldə etdiyi böyük tarixi qələbədən sonra regionumuzdan keçən bir çox layihələrin, məhz əsas mərkəzlərindən birinə çevrilib. Azərbaycan şərq-qərb və şimal -cənub dəhlizlərinin əsas ötürücü qüvvəsinə çevrilib. 10 noyabr 2020-ci il bəyanatında öz əksini tapan Zəngəzur dəhlizinin reallaşması isə Azərbaycanın bu istiqamətdə nüfuzunu daha da artıracaq.



Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq Tural İsmayılov "Unikal"a açıqlamasında bildirib ki, Azərbaycan hazırda dünya siyasi gündəmini müəyyənləşdirən ölkələrdən biridir. Prezident İlham Əliyevin siyasi xətti, uğurlu diplomatik addımları indi Avropadan Asiyaya qədər geniş bucaqda maraqla qarşılanır. Dövlətimizin başçısı dünyasəviyyəli təşkilatlarda vacib çıxışlar edir, həll modelləri və gələcəyə yönəlik təkliflər səsləndirir. Prezident İlham Əliyevin şəxsi nüfuzu, liderlik keyfiyyətləri və dünyasəviyyəli siyasi biliyi Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin güclənməyi ilə müşahidə edilir. Ölkəmiz hazırda təkcə siyasi deyil, təhlükəsizlik, iqtisadi, humanitar və mədəni anlamda bütün dünyanın diqqətinə səbəb olan ölkədir. Dövlətimizin başçısının pandemiyanın ən kəskin dövründə koronavirus bəlasına qarşı mübarizəsi, belə həssas dövrdə Qarabağı işğaldan azad etməyi və qısa zaman ərzində bu qədər işlər görməyi hər yerdə təqdir edilir. Həmçinin ölkəmizin uğurlarının artması Azərbaycanın təmsil olunduğu təşkilatlarda da mövqelərimizin daha da güclənməyinə səbəb olur. Azərbaycan təmsil olunduğu təşkilatlara əvəzedilməz töhfələr bəxş edir. Praqada əldə etdiyimiz növbəti diplomatik qələbədən sonra Azərbaycan Prezidentinin Qırğızıstan və Qazaxıstan səfərinin vacib xüsusiyyətləri var. Nəzərə almaq lazımdır ki, Azərbaycanın mövqeyi Avropadan Mərkəzi Asiyaya, Cənubi Amerikadan Afrikaya qədər böyük coğrafi areallarda maraqla izlənilir. Ölkəmiz həm Qoşulmama Hərəkatı, həm də Türk Dövlətləri Təşkilatında (TDT) vacib layihələrin həyata keçirilməsində əsas icraçılardan biridir. Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalanmasından sonra TDT nəzdində əlaqələr daha da gücləndi. Qırğızıstan Azərbaycanın əməkdaşlıq etdiyi ən önəmli Mərkəzi Asiya ölkələrindən biridir. Bütövlükdə nəzərə almaq lazımdır ki, bu gün Azərbaycan Türk Dövlətləri Təşkilatının nəzdində inteqrasiyanın, eyni zamanda, dövlətlərarası münasibətlərin inkişafında vacib və kilid nöqtələrdən birini təmsil edir.

Politoloq qeyd edib ki, ölkəmiz region dövlətlərinin bir çox sahələr üzrə koordinasiya edilməsi, həmçinin Türk Dövlətləri Təşkilatının tərkibində ayrı-ayrı ölkələri ilə əlaqələrin daha da kompleksləşdirilməsi, gücləndirilməsi yönündə böyük siyasi kurs həyata keçirir. Bu gün Qırğızıstan-Azərbaycan əlaqələri kifayət qədər yüksək səviyyədədir. Bu iki ölkə təkcə siyasi deyil, eyni zamanda, iqtisadi, mədəni, humanitar sahələrdə geniş vektorlu əməkdaşlıq həyata keçirirlər. Bu baxımdan, Azərbaycan-Qırğızıstan münasibətlərinin daha da inkişaf etdirilməsi qarşıya qoyulan prioritet hədəflərdəndir. Tural İsmayılov onu da bildirib ki, Prezident İlham Əliyev daha əvvəl Qazaxıstan, Özbəkistan və Qırğızıstanla bir çox sahələr üzrə müqavilələr imzalayıb. Eyni zamanda, Qırğızıstana səfər edərək bir çox layihələrlə bağlı razılığa gəlib. Ölkəmizin Mərkəzi Asiyada aparıcı qüvvələrdən birinə çevrilməyi TDT-nin qlobal mövqelərinə də güclü təsir göstərir. Qırğızıstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda, o cümlədən, Qoşulmama Hərəkatında, BMT-də, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatında, Türk Dövlətləri Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində əməkdaşlıq edirlər. Eyni zamanda, Azərbaycan Qazaxıstanla da Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avroatlantik Tərəfdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Akademiyası kimi mühüm təşkilatlarda əməkdaşlıq edir. "2009-cu ildə Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının 9-cu Zirvə Görüşü zamanı Qırğız Respublikasının Prezidentinin "Türkdilli ölkələrin əməkdaşlıq şurasının yaradılması haqqında saziş türkdilli dövlətlərin birləşməsi üçün nadir şans verir" bəyanatı da təşkilatın üzvü olan dövlətlərin başçıları tərəfindən dəstək qazandı və Zirvə Görüşünün sonunda prezidentlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini və türkdilli ölkələrin dövlət başçılarının 9-cu Sammitinin yekunu olaraq Naxçıvan Bəyannaməsini imzaladılar. Qırğızıstan Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəkləyir, bəzən isə həlli üçün müəyyən fəallıq göstərməyə də çalışıb. Belə ki, 1994-cü ilin may ayında MDB-nin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında atəşkəs müqaviləsi Bişkek şəhərində imzalanmışdı. Azərbaycanla Qazaxıstan arasında da əlaqələr yüksək səviyyədədir. Bunu bu iki ölkənin prezidentlərinin qarşılıqlı səfərləri də sübut edir. İndiyədək ölkələrimiz arasında əlaqələrin inkişafına dair 119 ikitərəfli sənəd imzalanıb. Bu sənədlər iki ölkənin münasibətlərinin müxtəlif sahələrdə inkişafına daha da töhfə verib. Azərbaycan və Qazaxıstan geniş iqtisadi potensiala malikdir. Hər iki ölkə "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" çərçivəsində əməkdaşlıq edir. Aktau dəniz limanı xüsusi zonasında Azərbaycan sərmayəsi ilə inşa edilən "Aktau İstehsal və Logistika Mərkəzi" ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır. Ötən il Azərbaycan və Qazaxıstan arasında ticarət dövriyyəsi 330 milyon dollardan çox olub. 2022-ci ildə isə bu rəqəmin 500 milyon dollara çatdırılması nəzərdə tutulub. Hazırda Azərbaycanda 165 Qazaxıstan şirkəti fəaliyyət göstərir. Qeyri-neft sektorunda Azərbaycandan Qazaxıstana indiyə qədər 204.3 milyon ABŞ dolları dəyərində sərmayə yatırılıb. Qazaxıstandan Azərbaycana isə bu sahə üzrə 98,8 milyon ABŞ dolları həcmində investisiya qoyulub", - politoloq söyləyib.

Ekspert bildirib ki, Praqa səfərindən sonra Prezident İlham Əliyevin Qırğızıstan və Qazaxıstana səfəri ölkəmizin qlobal siyasi güc olduğunu göstərir. Dövlətimizin başçısı Avropada da, Mərkəzi Asiyada da, Qoşulmama Hərəkatına böyük töhfələr verməyi baxımından Amerikadan Çinə qədər bütün qlobal məkanda sözünə etibar edilən siyasi liderdir. Belə ki, Azərbaycan Prezidentinə olan beynəlxalq rəğbət ölkəmizin qlobal mövqelərinin güclənməyi ilə nəticələnir.

***Gülayə Məcid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Tələbə adı qazanan şəhid övladlarına 2 min manat mükafat verilib




***"YAŞAT" Fondu tərəfindən bu il də ilk dəfə tələbə adını qazanan şəxslərə 2000 AZN pul mükafatı veriləcək.***

"Unikal" xəbər verir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev 2023-2024-cü tədris ili üzrə rəsmi olaraq akkreditasiya olunmuş ali təhsil müəssisələrinə qəbul olunan şəhid ailə üzvləri ilə görüşüb.

Görüş iştirakçılarına Fond tərəfindən təsis olunmuş 2000 AZN birdəfəlik pul mükafatının sertifikatları təqdim olunub.

İlk dəfə tələbə adını qazanan şəhid ailəsi üzvləri və müharibə əlilləri mükafatla bağlı ətraflı məlumatı 8110 Çağrı Mərkəzi ilə əlaqə saxlayaraq əldə edə bilərlər.

# Miqrasiya ilə bağlı mühüm dəyişiklik




***İlk dəfə miqrasiya orqanlarına qulluğa qəbul edilən şəxslər üçün daxil olduqları vəzifədən və hazırlıq səviyyəsindən asılı olaraq 3 aydan 6 aya qədər sınaq müddəti (kiçik xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə qulluğa qəbul edilən şəxslər üçün yalnız 3 aylıq sınaq müddəti) müəyyən edilir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"yə təklif edilən dəyişikliklə qeyd olunub.

Qanun layihəsində təklif edilən dəyişikliyə əsasən, sınaq müddəti müəyyən edilmiş şəxslər müvafiq vəzifəyə xüsusi rütbə verilmədən təyin olunacaqlar və onlar həmin müddət ərzində yalnız vəzifə maaşı alacaqlar.

# Son 1 ildə "Azərsu" abonentlərinin sayı neçə % artıb?

***Son 1 ildə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi "Azərsu" Açıq Səhmdar Cəmiyyəti abonentlərinin sayı 4,5 faiz, 2023-cü ilin əvvəlindən isə 3,4 faiz artıb.***

| | 01.09.2023 | 01.09.2022 | Artım |
|---|---|---|---|
| CƏMİ | 1 808 538 | 1 726 305 | 82 233 |
| ƏHALİ | 1 736 490 | 1 658 777 | 77 713 |
| QEYRİ-ƏHALİ | 72 048 | 67 528 | 4 520 |

Bu barədə "Unikal"a qurumdan məlumat verilib. Bildirilir ki, 01 sentyabr 2023-cü il tarixinə ölkə üzrə 1808538 abonent içməli su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin istifadəçisi kimi qeydiyyata alınıb. Abonentlərin 1736490 və ya 96 faizi əhali, 72048 və ya 4 faizi isə qeyri-əhali qrupu abunəçiləridir.

Abonent sayında artım yeni layihələrin icrası nəticəsində istehlakçıların mərkəzləşdirilmiş içməli və tullantı su şəbəkələrinə qoşulması, yeni tikilmiş fərdi yaşayış evləri sahiblərinin texniki şərt alaraq abonent kimi qeydiyyata düşməsi, həmçinin içməli su və kanalizasiya xidmətlərindən qeyri-qanuni istifadə hallarının aşkarlanaraq qeydiyyata alınması hesabına baş verib.

01 sentyabr 2023-cü il tarixinə abonentlərin 89,3 faizi sayğacla təmin olunub. Hazırda əhali qrupu abonentləri üzrə sayğaclaşma səviyyəsi 89,1 faiz, qeyri əhali qrupu üzrə isə 95,5 faiz təşkil edir.

# Minsk Dövlət Linqvistik Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi açılıb

***Sentyabrın 13-də Minsk Dövlət Linqvistik Universitetində Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanın və Minsk Dövlət Linqvistik Universitetinin rektoru, professor Natalya Yevqeniyevna Laptevanın birgə təşəbbüsü və Azərbaycan Respublikasının Belarusdakı səfirliyinin yaxından iştirakı ilə Azərbaycan dili və mədəniyyəti mərkəzinin təntənəli açılış mərasimi keçirilib.***




"Unikal" xəbər verir ki, tədbiri giriş sözü ilə Minsk Dövlət Linqvistik Universitetinin rektoru, professor Natalya Yevqeniyevna Lapteva açıb. Azərbaycan Dillər Universitetinin rektoru, akademik, xalq yazıçısı Kamal Abdulla tədbir iştirakçılarını salamlayaraq Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılmasının hər iki ölkənin ictimai-siyasi həyatında və eləcə də Universitetlərin elmi-pedaqoji fəaliyyətində mühüm əhəmiyyət kəsb edəcəyini bildirib.

Tədbirdə Belarus Respublikası Təhsil Nazirliyinin idarə rəisi Sergey Nikolayeviç Pişov, Belarus Respublikası Xarici İşlər Nazirliyinin idarə rəisi Sergey Petroviç Molunov, Azərbaycan Respublikasının Belarusdakı səfirliyinin müşaviri Nizami Rüstəmov, Belarus Respublikası Parlamentinin Beynəlxalq münasibətlər və milli təhlükəsizlik məsələləri daimi komissiyası sədrinin birinci müavini, Belarus Dövlət Universitetinin professoru Andrey Vladimiroviç Rusakoviç, Azərbaycan Dillər Universitetinin Təhsil 1 fakültəsinin dekanı, professor Fikrət Cahangirov, Belarusdakı "Azərbaycan İcması Konqresi"nin Gənclər təşkilatının sədri Olesya Vtaliyevna Kosoykina Minsk Dövlət Linqvistik Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılmasının əhəmiyyətindən bəhs edərək hər iki Universitetin rektorlarına minnətdarlıqlarını bildiriblər. Qeyd etmək lazımdır ki, son dövrdə dünyanın çeşidli ölkələrindəki Universitetlərdə Azərbaycan dili və mədəniyyəti mərkəzləri açılıb. Minsk Dövlət Linqvistik Universitetində açılmış Azərbaycan dili və mədəniyyəti mərkəzi səkkizincidir.

Təntənəli açılış mərasimindən dərhal sonra Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunmuş "Belarus və Azərbaycan: Tarix, müasirlik və ikitərəfli əməkdaşlığın perspektivləri" adlı dəyirmi masa baş tutub. Dəyirmi masanın moderatorları Azərbaycan Dillər Universitetinin rektoru, akademik, xalq yazıçısı Kamal Abdulla və Minsk Dövlət Linqvistik Universitetinin rektoru, professor Natalya Yevqeniyevna Lapteva giriş nitqi söyləyərək Azərbaycan və Belarus Respublikaları arasındakı siyasi, iqtisadi və mədəni əlaqələrin tarixi və ənənələrindən bəhs ediblər. Akademik Kamal Abdulla Azərbaycanla Belarus arasındakı əlaqələrin qurulmasında Ulu öndər Heydər Əliyevin mühüm rolunu qeyd edərək bu əlaqələrin bugünkü səviyyəyə çatmasında prezident İlham Əliyevin siyasi iradəsini də xüsusi olaraq vurğulayıb.

Tədbirin gedişində Belarus Respublikası Parlamentinin deputatı, Belarus Dövlət Universitetinin professoru Andrey Rusakoviç, MDLU-nin pedaqogika və psixologiya kafedrasının dosenti Vladimir Paşkeviç, BDU-nun Filologiya fakültəsinin dekanı, professor Vasiliy Stariçyenok, MDLU-nun Tarix və sosial elmlər kafedrasının dosenti Nikolay Baranov və MDLU-nun Tarix və sosial elmlər kafedrasının dosenti Olqa Qutko məruzə ilə çıxış edərək Azərbaycan və Belarus arasındakı iqtisadi, siyasi,elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri və eləcə də Azərbaycan dövlətinin multikulturalizm siyasətindən bəhs ediblər.

# Sumqayıtda təhlükəli radioaktiv maddə aşkarlandı

***İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nüvə tədqiqatları departamenti tərəfindən Sumqayıt şəhərində aparılan radioloji sınaqlar zamanı şəhər ərazisində anomal radiasiya göstəricilərinə malik sahə aşkar edilib. Təkrar yoxlamalar vasitəsilə nəticələr təsdiqləndikdən sonra bu barədə aidiyyəti dövlət qurumları müvafiq qaydada məlumatlandırılıb.***



Bu barədə "Unikal"a agentlikdən məlumat verilib. Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi tərəfindən Sumqayıt şəhəri ərazisinə yaxın istehsalat sahəsində radiasiya təhlükəsi ehtimalı olan ərazilərin radioloji şəraitinin araşdırılmasına İRİA-nın nüvə tədqiqatları departamentinin mütəxəssisləri də cəlb edilib.

Mütəxəssislər tərəfindən digər aidiyyəti dövlət qurumlarının əməkdaşları ilə birlikdə radioloji şəraitin qiymətləndirilməsi üzrə radiometrik-dozimetrik və spektrometrik ölçülər aparılıb və ərazidə yüksək radiasiya təhlükəli zonanın müəyyən edilməsi məqsədi ilə nüvə-radioloji sınaq işləri görülüb.

Agentlik tərəfindən hazırda müxtəlif ölkələrdə belə halların aradan qaldırılması zamanı cavab tərbirləri üzrə analitik planlar öyrənilərək təhlil edilir və öyrənilmiş dərslər ümumiləşdirilir. Aşkar edilən radiasiya təhlükəli zonanın minimum zərərlə aradan qaldırılması ilə bağlı tədbirlər planına daxil edilmək üzrə təkliflər Agentlik tərəfindən yaxın günlərdə müvafiq qurumlara operativ şəkildə təqdim ediləcəkdir.

Qeyd edək ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) fəaliyyət istiqamətlərindən biri olan nüvə elmi və texnologiyalarının sınaq təcrübələri və ölkə ərazisində radioloji elmi tədqiqat işlərini aparır. Eyni zamanda İRİA "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın "Radioloji və radioekoloji tədqiqatların aparılması" adlı 6.1.1 yarımbəndi üzrə məsul icraçıdır. Nüvə tədqiqatları departamentinin alimləri və mütəxəssisləri tərəfindən sözügedən proqramın müvafiq bəndinin effektiv şəkildə icrası məqsədilə, Agentliyin daxili imkanları əsasında radiasiyanı məsafədən aşkarlayan və ərazinin radioloji fon xəritəsini hazırlamağa imkan verən "NTDradSCAN" radiometrik radiasiya aşkarlayıcı və axtarış sistemi hazırlanıb. Bu axtarış sistemi vasitəsilə işğaldan azad edilmiş ərazilərdən öncə Abşeron yarımadası ərazisində çox saylı testlər və ölçü sınaq işləri aparılmaqdadır.

# Regionlarda meliorativ tədbirlər davam edir

***Yuxarı Şirvan Kanalında böyük layihə icra olunur. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, 1958-ci ildə istifadəyə verilən, 1961-ci ildə isə ikinci hissəsi istismara verilərək maksimum su sərfi 78 m3/ san olan Yuxarı Şirvan Kanalı respublikanın ikinci ən böyük magistiral suvarma kanalıdır.***

Uzunluğu 122 km olmaqla kanal Mənbəyini Mingəçevir su anbarından götürür. Kanal Kür çayının sol sahilindən keçməklə 130 min hektar əkin sahəsinin suvarılmasını təmin edir. Kanalın istismara verilməsi Şirvan düzündə öz axını ilə suvarılan sahələrin su ilə təmin olunmasına şərait yaradır. Kanal su ilə təmin olunan Yevlax, Ağdaş, Göyçay, Ucar, Kürdəmir, Ağsu, Zərdab, İsmayıllı, Hacıqabul və Şamaxı rayonlarının 130 min hektar torpaq sahələrinin suvarılmasına xidmət edir. Kanalın fəaliyyətini daim təmin etmək üçün Yuxarı Şirvan Kanalı İstismarı İdarəsi tərəfindən təxirəsalınmaz işlər görülür. Belə ki, sel suları nəticəsində yuyulan qurğular yenindən təmir olunaraq istismara verilir.

Yuxarı Şirvan Kanalı üzərində Əliciançay, Türyançay, Göyçayçay, Girdimançay, Ağsuçay, Dəvəbətançay və Nəzriçayla kəsişdiyi yerlərdə mürəkkəb konsturuksiyalı 6 ədəd dükerlər və 2 ədəd akveduk tikilib. Ümümüyətlə kanal üzərində sadə və mürəkkəb konusturuksiyalı 129 ədəd qurğu inşa edilib. Bunlardan 1ədəd baş qurğu, 6 ədəd düker, 2 ədəd akveduk, 29 ədəd körpülər, 52 ədəd selötürücülər, 1 ədəd cəldaxıdan, 1ədəd su tullayıcı, 1 ədəd səviyyə qaldıran, 36 ədəd suburaxıcı qapı və 1 ədəd qidalandırıcı kanalın normal iş rejmini təmin edirlər. İş rejiminin normal təmin edilməsi üçün idarə tərəfindən istismar tədbirlərinə uyğun olaraq hazırda kanalın Göyçay rayonundan keçən hissəsində bərpa işləri görülür.

Qeyd edək ki, Yuxarı Şirvan Kanalı İstismarı İdarəsi tərəfindən hazırda Kürdəmir və Göyçay rayonları ərazisində təmir-bərpa, kanalın Ağdaş rayonu ərazisindən keçən hissəsində isə lildən təmizləmə işləri davam edir. Bundan başqa 2023-cü ilin 8 ayı ərzində Mingəçevir Su Anbarıdan kanala 910 mln/m3 su götürüləərk rayonlara arıycılarda 728 mln/m3 su təhvil verilib. Kanalda idarənin öz gücü ilə 24,5 km, dağətəyi kanalda 6583 m məsafə lildən təmizlənib, balansda olan 7 ədəd hidrotexniki qurğu cari təmir olunub. Çay məcralarında isə 88 min m3 həcmdə məcra tənzimləmə işləri həyata keçirilib.



Ağstafada meliorativ tədbirlər davam edir. Dilqəm Şərifov bildirib ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Sumqayıt Melioservis İdarəsi hazırda ölkənin müxtəlif istiqamətlərində meliorativ tədbirlərini davam etdirir. İdarənin gördüyü işlərdən biri də Ağstafa rayonu ərazisindədir. Rayonun Qıraqkəsəmən kəndində, Kür çayı üzərində quraşdırılmış nasos stansiyada abadlıq işlərinin görülməsinə idarənin əməkdaşları və texnikası cəlb olunub. Abadlıq işləri üçün mal-material alınıb və hazırda materialların daşınması və eynilə istinad divarının suvanması və boyanması sürətlə davam edir. Nasos Stansiya vasitəsilə əvvəllər suvarılmasında çətinlik olan 250 hektar əkin sahəsi asanlıqla suvarılacaq.

Qeyd edək ki, Sumqayıt Melioservis İdarəsi Ağstafa rayonunda iki müxtəlif istiqamətdə, paralel olaraq Qazax rayonunda da meliorativ tədbirlərini davam etdirir.

Lənkəranda meliorativ tədbirlər davam edir. Dilqəm Şərifov bildirib ki, ilk dəfə olaraq Xanbulançay su anbarında innovativ bir yenilik tətbiq olunub. Su anbarındakı işləri nəzarətdə saxlamaq və idarə etmək üçün kompyuter servis aparatı quraşdırılıb.

Cənub bölgəsində suvarma mövsümü geridə qaldı. Cari ilin 8 ayı ərzində görülən işləri qənaətbəxş hesab etmək olar. Belə ki, bu müddət ərzində suvarma suyunun ərazilərə maneəsiz verilməsi və izafi suları kənarlaşdırmaq üçün Lənkəran rayonu ərazisində görülən işlər öz bəhrəsini verib. Suvarma mövsümünün əvvəlində Xanbulançay su anbarına 56, 517 milyon kubmetrdən artıq su yığılıb və həmən suyun 50 milyon kubmetrə yaxın su səmərəli şəkildə sahələrə istifadəyə verilib. Suvarmanın düzgün təşkili və növbəlik prinsipinə riayət olunması nəticəsində suya qənaət olunmuş və toplanmış sudan 26 milyon kubmetr su anbarda qalmışdır.

Bundan başqa Boladi, Separadi, Cil, Xarxatan, Mamusta, Gərmətük və digər kəndlərin ərazisində sel və subasmaya qarşı tədbirlər çərçivəsində 20 km uzunluqda kanallarda lildən təmizlənmə işləri görülmüş, 45 min kubmetr həcmində lildən təmizlənmə və 35 min kubmetr həcmində hamarlama işləri aparılmışdır ki, bu da gələcəkdə sel sularının qarşısını təhlükəsizliyinin qarşısını alacaqdır.

İlk dəfə olaraq bu il Xanbulançay su anbarında innovativ bir yenilik tətbiq olunub. Su anbarındakı işləri nəzarətdə saxlamaq və idarə etmək üçün kompyuter servis aparatı quraşdırılıb.

Qeyd edək ki, Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsinin su anbarı, Lənkəran rayonunun 7000 hektar, Astara rayonunun 2000 hektar və Lerik rayonunun isə 284 hektar əkin sahələrini suvarma su ilə təmin edir.

***Hüseyn İsgəndərov***



# Qəzada həlak olan 3 hərbçimizə şəhid statusu veriləcək

***Ötən gün çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində həlak olan hərbi qulluqçularımız - Əliyev Taleh Saleh oğlu, Həsənov Elgün Elşad oğlu və Namazov Nihad Kamrəddin oğluna şəhidlik statusu veriləcək.***

Bu barədə "Unikal"a Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İctimaiyyətlə İş və Beynəlxalq Əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov bildirib.

"Qəza nəticəsində həyatlarını itirən Azərbaycan Ordusunun hər 3 hərbi qulluqçusuna Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə hərbi hissə tərəfindən təqdim ediləcək bildiriş əsasında şəhidlik statusu veriləcək", - deyə şöbə rəisi qeyd edib.

# Qan töküb torpağı Vətən edənlər...



***İkinci Qarabağ müharibəsində xalqın 30 illik torpaq həsrətinə öz qanı, cani ilə son qoyan Vətənin qəhrəman övladlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin mayoru şəhid Aqşin Nazim oğlu İbadovdur. Doğulub boya-başa çatdığı Lənkəran rayonunun Boladı kəndində bu, Vətən sevdalısının adı çəkiləndə belə kiçik də, böyükdə qürur hissi keçirir, qəlblərdə doğma Azərbaycana olan ilahi bir məhəbbət hissi baş qaldırır. Bəli, ömrü günəşləşən Aqşın indi artıq boladililər üçün şandır, şöhrətdir.***

Vətən torpaqların işğalına qarşı barışmaz mövqe tutan Aqşin özünə hərbiçi peşəsini seçib. O, 2001-2005-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kəşfiyyatçı ixtisası üzrə təhsil alıb. Leytenant rütbəsi alaraq, hərbi vəzifəyə başlayıb. Ağstafa rayonunda, Mingəçevir şəhərində, Murovdağda, Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissələrdə canından artıq sevdiyi Vətəninə vicdanla xidmət edib. Vətənpərvərliyi, peşəkarlığı həmişə ona hörmət qazandırıb, mayor rütbəsinə qədər ucalıb.

Azərbaycan Ordusunun kəşfiyyatçı mayoru olan Aqşin İbadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağın, Füzulinin, Cəbrayılın, Xocavəndin və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 19-da Zəngilan döyüşləri zamanı ömrünün 36-cı ilində şəhidlik zirvəsinə ucalıb və Lənkəran rayonunda dəfn olunub.

Qalib şəhid Aqşin İbadovun adına can dediyi, müqəddəsliyinə tapındığı Azərbaycanın qarşısında xidmətləri böyükdür. Dövlət tərəfindən layiq görüldüyü təltiflər də bunu göstərir. III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", III dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Ordusunun 100 illiyi", II dərəcəli "Qüsursuz xidmətə görə", ölümündən sonra isə "Vətən uğrunda", Cəbrayılın, Kəlbəcərin, Xocavəndin, Füzulinin azadlığına görə medalları ilə təltif edilib.

Yeri milyonların ürəyi olan şəhid Aqşin İbadovun 39 yaşı da lənkəranlılar tərəfində böyük ehtiramla qeyd olunub. Doğum günündə Lənkəran Şəhər İcra Hakimiyyətinin əməkdaşları, yerli ictimaiyyətin nümayəndələri şəhidin ailəsinə baş çəkib, qəhrəman övladımızın məzarını ziyarət edib, önünə gül dəstələri düzüblər.

Mərasimdə çıxış edənlər bildiriblər ki, Aqşin kimi Vətənin qeyrətli oğlanlar hesabına 44 günlük haqq savaşımız möhtəşəm zəfərlə başa çatdı. Bu da Azərbaycan və dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Vətəninə, torpağına bağlı qəhrəman Aqşin İbadovun adı hər gələn nəsillərə örnək olsun deyə daimi böyük ehtiramla çəkilər.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Paşinyan sərhəddəki gərgin vəziyyətdən danışdı



***"Ermənistan-Azərbaycan sərhədində vəziyyət gərgin olaraq qalır".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

Paşinyan bildirib ki, Ermənistan sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycanın yeni şərhlərini alıb: "Biz işləyəcəyik və münasib vaxt ərzində şərhimizi təqdim edəcəyik. Sülhün bizim regionda alternativi yoxdur və regionumuzun ölkələrinin suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini təmin edən yeganə həll yoludur".

***Ağarza Elçinoğlu***

# Putin Kim Çen Ina silah və kosmik əlcək bağışlayıb



***Rusiya prezidenti Vladimir Putin Şimali Koreya lideri Kim Çen Ina yerli istehsal olan karabin silahı və kosmik kostyumdan əlcək hədiyyə edib.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov danışıb.

Rusiya dövlət başçısının mətbuat katibi bildirib ki, təqdim olunan əlcək bir neçə dəfə kosmosda olub. Kim Çen In öz növbəsində Putinə Şimali Koreya ustalarının hazırladığı karabin hədiyyə edib.

"Başqa hədiyyələr də var idi", - deyə Peskov qeyd edib.

"Paşinyan Ermənistan tarixində ən pis danışıqlar aparan şəxsdir" - Erməni deputat

"Nikol Paşinyan Ermənistan tarixində ən pis danışıq aparan şəxsdir, çünki məhz onun danışıqları nəticəsində diplomatiya başa çatıb".

"Unikal" erməni mətbuatına istinadən xəbər verir ki, bunu Ermənistan Milli Assambleyasının müxalifətçi deputatı Taqi Tovmasyan deyib.

O, Ermənistanın baş nazirinə Fransa prezidenti Emmanuel Makronla daha tez-tez əlaqə saxlamağı tövsiyə edib.

# "İran nüvə materiallarının yeri barədə məlumat verməlidir" - Britaniya XİN



***Böyük Britaniya, Almaniya, ABŞ və Fransa İrandan nüvə materiallarının yeri barədə məlumat verməsini tələb ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə Böyük Britaniya Xarici İşlər Nazirliyinin və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (MAQATE) Rəhbərlər Şurasının birgə bəyanatında deyilir.

"Həll edilməmiş [MAQATE] təhlükəsizlik tədbirləri məsələlərinə gəlincə, qeyd edirik ki, İran agentlik tərəfindən Turkuzabad və Varamində aşkar edilmiş antropogen uran hissəcikləri məsələsini hələ də həll etməyib. Agentliyin aydın sorğusuna uyğun olaraq, İran Türkuzabad və Varamində nüvə materialının və çirklənmiş avadanlığın cari yeri barədə daha gecikmədən texniki cəhətdən etibarlı məlumat verməlidir", - mətndə qeyd olunur.

# "Nəyi gözləyirik?" - Conson Qərbi tənqid etdi

***Böyük Britaniyanın keçmiş baş naziri Boris Conson ölkəsinin hökumətini Ukrayna ilə bağlı siyasətinə görə tənqid edərək bildirib ki, Kiyevə təcili olaraq daha çox silah verilməlidir.***

"Unikal" xəbər verir ki, o, bu barədə "Spectator" jurnalının köşə yazısında bildirib.

Siyasətçi ukraynalıları Rusiya helikopterlərini məhv etmək üçün insan daşına bilən zenit-raket kompleksləri, hava hücumundan müdafiə üçün Patriot hava hücumundan müdafiə sistemləri və Rusiyanın mövqelərini məhv etmək üçün daha uzun mənzilli artilleriya, o cümlədən ATACMS, uzaqmənzilli raket sistemi təqdim etməyə



çağırıb.

Conson onu da vurğulayıb ki, Qərb ölkələri maksimum hərbi dəstək versələr, belə bir addımın faydaları nisbətən standart xərcləri xeyli üstələyir. O, Ukraynaya təcili hərbi yardım göstərməyə çağırıb.

"Mən bunu əvvəllər soruşmuşam və yenə də soruşacağam: "Biz nəyi gözləyirik?", - Consan vurğulayıb.

Keçmiş baş nazir əlavə edib ki, ukraynalılar "məsələyə son qoymaq üçün silah" istəyirlər, ona görə də müttəfiqlərin süründürməçiliyini başa düşmür:

"Niyə biz həmişə bu qədər yavaşıq? Bu insanların gözünün içinə baxıb gecikməyi necə izah edək? Bu müharibə boyu biz ukraynalıları aşağı qiymətləndirdik, Putini də çox qiymətləndirdik və bu gün də eyni şeyi edirik".

***Gülayə Mecid***

# Rusiyadan Bakı və İrəvana çağırış

***Moskva Qarabağda davam edən gərginlikdən narahatdır, Bakı və İrəvanla təmaslarını davam etdirir və hər iki tərəfi təmkinli olmağa çağırır.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

"Əlbəttə, biz bəzi sahələrdə gərginliyin səngiməməsindən və hətta artmağa meylli olmasından narahatıq. Hər şeyə baxmayaraq, Rusiya təhlükəsizliyin etibarlı təminatçısı olaraq qalır. Biz həm İrəvan, həm də Bakı ilə əlaqələrimizi davam etdiririk. Və təbii ki, biz hər iki tərəfi təmkin göstərməyə və iki il əvvəl imzalanmış həmin üçtərəfli sənədlərin ruhunda hərəkət etməyə çağırırıq. Təbii ki, o vaxtdan bəri ortaya çıxan yeni reallıqları nəzərə alaraq", - o,Qarabağda artan gərginliklə bağlı sualı cavablandırarkən deyib.

***Gülayə Mecid***



# İsrail Zelenskiyə böyük lider kimi baxır

***İsrail Ukrayna prezidenti Volodimir Zelenskini ölkədə böyük nüfuza malik böyük beynəlxalq lider hesab edir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Knessetin deputatı Zeev Elkin Ukrayna mətbuatına müsahibəsində deyib.

"Bizim onunla şəxsi münasibətimiz var, bu, hələ müharibə başlamazdan əvvəl for-



malaşıb. Biz ona çox hörmət edirik və qiymətləndiririk", - Elkin izah edib.

Bundan əvvəl Rusiya lideri Vladimir Putin Ukrayna prezidenti Vladimir Zelenskini "yəhudi xalqı üçün biabırçılıq" adlandırmışdı, çünki onun sözlərinə görə, bəzi yəhudilər Ukrayna prezidentini öz xalqına layiq olmayan hesab edirlər.

***Gülayə Mecid***

# Saakaşviliyə qarşı yeni cinayət işi açıla bilər

***Gürcüstanın eks-prezidenti Mixail Saakaşvilinin büdcə vəsaitlərini şəxsi reyslərə xərcləməsi ilə bağlı cinayət faktı təsdiqlənib və bu, araşdırmaya başlamaq üçün əsas olmalıdır.***

"Unikal" xəbər verir ki, bu barədə hakim "Gürcü arzusu" partiyasının icraçı katibi Mamuka Mdinaradze bildirib.

Qeyd edək ki, Gürcüstan Hava Yollarının keçmiş rəhbəri Tamaz Qayaşvili "Rustavi 2" televiziyasının efirində bildirib ki, Gürcüstan Müdafiə Nazirliyi ilə aviaşirkət arasında 9 milyon dollardan çox dəyərdə olan məxfi müqavilələr imzalanıb ki, bunlar dövlət büdcəsindən ödənilən özəl və hökumət səfərləri



olub. Bildirilib ki, bunun bir hissəsi Saakaşvilinin şəxsi səfərlərinə xərclənib.

"Gürcü Arzusu" fraksiyasının sədr müavini Giorgi Tsaqareişvili də araşdırmaya başlamağın zəruriliyini bildirib: "Hesab edirəm ki, mütləq istintaq başlamalıdır. Prinsipcə, bunu Gürcüstanın Baş Prokurorluğu müəyyənləşdirməlidir".

***Ağarza Elçinoğlu***

# Şahruddin Avropada ən çox seyv edən qapıçılardandır

***"WhoScored" nəşri AVRO-2024-ün seçmə mərhələsində ən çox seyv edən qapıçıların siyahısını açıqlayıb.***

Azərbaycan millisinin qapıçısı Şahruddin Məhəmmədəliyev də ilk "5-liy"ə düşüb. Araşdırma turnirdə 10-dan çox qurtarış edən qapıçılar arasında aparılıb. Reytinqə 100 faizlik göstərici ilə iki qapıçı başçılıq edir.



Fransalı Mayk Menyan və macarıstanlı Denes Dibuşi məhz Məhəmmədəliyev izləyir. Onun göstəriciləri 91,7 faizlə qiymətləndirilib. Məhəmmədəliyev performansı, statistikası və reytinqinə görə Avropada üçüncü sıradadır.

1-2. Mayk Menyan (Fransa) - 100%

Denes Dibuş (Macarıstan) - 100%

3. Şahruddin Məhəmmədəliyev (Azərbaycan) - 91,7%

4-5. Dominik Livakoviç (Xorvatiya) - 91%

Anqus Qann (Şotlandiya) - 91%

# Azərbaycan millisinin üzvü: "Hər kəs qələbə haqda düşünür"

***"Yol yorğunluğuna rəğmən Rumıniyadakı ilk məşqimiz normal keçdi. Çalışdıq baş məşqçinin verdiyi tapşırıqları icra edək. Zal istənilən səviyyədə deyil. Bizdən əvvəl həndbolçular məşq edib deyə, örtük yapışqan idi. Ümid edirəm növbəti məşqə qədər təmizləyərlər".***

Qol.az xəbər verir ki, bu sözləri futzal üzrə Azərbaycan millisinin üzvü Amadeu Azərbaycan Futzal Federasiyasının saytına açıqlamasında deyib.

DÇ-2024-ün elit-raund mərhələsi çərçivəsində sabah Rumıniya yığması ilə qarşılaşacaq Azərbaycan millisi oyunun keçiriləcəyi Buzau şəhərində ilk məşqini reallaşdırıb. Məşqdə taktiki planda tapşırıqları yerinə yetirən futzalçılarımız hazırlığımı bu gün oyunöncəsi 1 saatlıq məşqlə davam etdirəcək.

O, söyləyib ki, komanda əhval-ruhiyyə yüksəkdir: "Hər kəs qələbə haqda düşünür. Uğurlu başlanğıc növbəti oyunlarda daha yaxşı nəticə qazanmağımız üçün vacibdir. Daha bir məşqimiz var. Elə etməliyik ki, bütün gücümüzü səfərbər edək və bura qədər çəkdiyimiz əziyyətin bəhrəsini görək.



Çünki Rumıniya ilə matçdan sonra Bakıda Niderlandla görüş var. Həmin oyuna qalib əhvalda çıxmaq istəyirik".

Millinin müdafiəçisi rəqib haqda bunları deyib: "Rumıniyanın 2 oyununa baxmışam. Heyətlərində braziliya əsilli 4 futzalçı var. Çox çətin oyun olacaq. Şansları qaçırmaq olmaz. Elə oyundur ki, həmin gün kim yaxşı konsantrasiya olsa, imkanları düzgün dəyərləndirsə, qələbə qazanacaq".

Amadeu qrupla bağlı düşüncələrini də dilə gətirib: "Rumıniya, dediyim kimi güclü rəqiblərdəndir. Onlara qarşı oynamaq digər komandalara da çətin olacaq. Niderland isə hər matçda sürpriz edəcək gücdədir. Son illərdə onlar inkişafdadır, heyətlərində fərdi qabiliyyətinə görə seçilən oyunçular var. Birəbirdə güclüdürlər. Qazaxıstan yığması haqda isə geniş danışmağa dəyməz. Onlar son illərdə böyük yarışların final mərhələsində oynamağa adət ediblər. Qrup lideri olmaq baxımından komandamızın şansı 50-nin 50-yədir".

# AVRO-2024-də altıncı turun nəticələri

***AVRO-2024-ün seçmə mərhələsində VI tura yekun vurulub.***

Turun son oyun günündə doqquz qarşılaşma keçirilib.

A qrupunda İspaniya millisi Kipri, Norveç yığması Gürcüstanı məğlub edib.

C qrupunda İtaliya Ukraynaya, Şimali Makedoniya Maltaya qalib gəlib.

Azərbaycan millisinin yer aldığı F qrupunda da iki görüş baş tutub. Lider Belçika evdə Estoniyanı 5:0, Avstriya isə səfərdə İsveçi 3:1 hesabı ilə üstələyib.

İ qrupunda isə üç oyun keçirilib. İsrail Belarusla, Rumıniya Kosovo ilə, İsveçrə isə Andorra ilə dueldən qalib ayrılıb.

AVRO-2024, seçmə mərhələ

**VI tur**

12 sentyabr



**A qrupu**

İspaniya - Kipr 6:0

Ətraflı

Ad - 00:14

Norveç - Gürcüstan 2:1

Xal durumu: Şotlandiya - 15 xal (5 oyun), İspaniya - 9 (4), Norveç - 7 (5), Gürcüstan - 4 (5), Kipr - 0 (5)

**C qrupu**

İtaliya - Ukrayna - 2:1

Malta - Şimali Makedoniya - 0:2

Xal durumu: İngiltərə - 13 (5), Ukrayna - 7 (5), İtaliya - 7 (4), Şimali Makedoniya - 7 (5), Malta - 0 (5)

**F qrupu**

Belçika - Estoniya - 5:0

İsveç - Avstriya - 1:3

Xal durumu: Belçika - 13 (5), Avstriya - 13 (5), İsveç - 6 (5), Azərbaycan - 1 (4) Estoniya - 1 (5)

**I qrupu**

İsrail - Belarus 1:0

Rumıniya - Kosovo 2:0

İsveçrə - Andorra 3:0

Xal durumu: İsveçrə - 14, İsrail - 11, Rumıniya - 12, Kosovo - 4, Belarus - 4, Andora

# "Barselona" Xavi ilə bağlı qərar verdi

***"Barselona" klubu baş məşqçi Xavi ilə müqaviləni yeniləyəcək.***



"Unikal" xəbər verir ki, bu barədə İspaniya mətbuatı məlumat yayıb. Yeni sözləşmənin müddəti 2025-ci ilin yayınadək nəzərdə tutulub.

Müqavilənin tezliklə açıqlanması gözlənilir.

# "Qalatasaray" futbolçusu ilə yollarını ayırdı

***"Qalatasaray" klubunda ayrılıq yaşanıb.***

"Unikal" xəbər verir ki, "sarı-qırmızılar" Oğulcan Çağlayan ilə yollarını ayırıb.

Bu barədə klubun rəsmi saytı məlumat yayıb.

# "Sabah" latviyalı oyunçunu transfer etdi

***"Sabah" basketbol klubu heyətini yeni oyunçu ilə gücləndirib.***

"Qafqazinfo" paytaxt təmsilçisinin rəsmi feysbuk səhifəsinə istinadən xəbər verir ki, 32 yaşlı latviyalı hücumçu Artyoms Butyankovsla 1 illik müqavilə imzalanıb.

O, karyerası ərzində Latviyanın "Valmiera", "Ventspils", "Betsafe Liepaya", "VEF Riqa", "Yurmala Feniks", Niderlandın "Donar Qroningen" və İtaliyanın "Givova Scafati" klublarında çıxış edib.

# "Mançester Yunayted" Xviça ilə maraqlanır

***"Napoli"nin hücumçusu Xviça Kvaratsxeliya karyerasını İngiltərə Premyer Liqada davam etdirə bilər .***

Qol.az "Daily Mail"ə istinadən xəbər verir ki, "Mançester Yunayted" Gürcüstan millisinin futbolçusunu transfer etməkdə maraqlıdır.

22 yaşlı futbolçu 2022-ci ilin iyulunda Batumi "Dinamo"sundan "Napoli"yə keçib. Transfer məbləği 13,3 milyon avro olub.Futbolçunun klubla müqaviləsi 2027-ci ilin yayına kimi nəzərdə tutulub.

Transfermarkt Kvaratsxeliyanı 85 milyon avro dəyərində qiymətləndirir.

# Qvardiola yenidən iş başında



***"Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola klubun düşərgəsinə qayıdıb.***

Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 52 yaşlı mütəxəssis avqustun 22-də belindən əməliyyat olunaraq sağalıb. Bu səbəbdən o, İngiltərə Premyer Liqasında komandasının iki matçını buraxıb.

O da qeyd olunub ki, Qvardiola qayıtdıqdan sonra artıq ilk məşqini keçirə bilib.

Dörd turdan sonra "Mançester Siti" maksimum 12 xalla Premyer Liqanın turnir cədvəlinə başçılıq edir. Komanda növbəti oyununu sentyabrın 16-ı səfərdə "Vest Hem"ə qarşı keçirəcək.

# PSJ-nin futbolçusu Qətərin klubunda

***PSJ-nin futbolçusu Marko Veratti karyerasını "Əl-Ərəbi"də davam etdirəcək.***

Bu barədə Qətər futbol klubunun mətbuat xidməti məlumat yayıb. Məlumata görə, otuz yaşlı italiyalı yarımmüdafiəçi 45 milyon avroya alınıb.

Qeyd edək ki, Verratti 2012-ci ilin iyulundan PSJ-də oynayıb, doqquz dəfə Fransa çempionu və altı dəfə ölkə kubokunun qalibi olub. İtaliya millisinin tərkibində o, 2021-ci ildə Avropa çempionu olub.